www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 aprel 2017-ci il Çərşənbə № 81 (6695) Qiyməti 60 qəpik

**Xəbər**

**Bu gün Əli İnsanovun məhkəməsidir- nə danışacaq?**

yazısı səh.2-də

# İKİ İCRA BAŞÇISININ BAŞI DƏRDDƏ - ADLARI...

Son bir həftədə prezident İlham Əliyev iki dəfə - həm "Hacı Cavad", həm də "Ovçular evi" ilə bağlı yaranmış məsələyə şəxsən müdaxilə etməli olub, hər iki halda əhalini narazı salan söküntü işlərini dayandırmaq barədə göstəriş verib; Yasamaldakı qanunsuz tikinti ilə bağlı məsuliyyət Bakı merinin və İbrahim Mehdiyevin üzərində qalıb




yazısı səh.5-də

## Putindən ermənilərə ilıq reverans- Bakını üzəcək mövqe

Lavrov, Peskov və Jirinovski Qarabağ separatçılarının lideri Saakyanla bir araya gəldilər; Rusiya rəsmi şəxsləri və "Kremlin danışan dili" Moskvada ermənin yubiley banketinin iştirakçıları oldu; **Jirinovski:** "Arzum budur ki, növbəti yubileyədək "Artsax" bütün ölkələr tərəfindən tanınsın, ermənilər Araratı geri qaytarsınlar..."

yazısı səh.7-də

**Gündəm**

## Prezident İlham Əliyevin hədəfləri: biznes adamlarına "master-klass"...



Müşavirədəki geniş və əhatəli çıxış həm də bir həqiqəti təsdiq etdi ki, prezident təkcə bacarıqlı siyasət adamı deyil, o həm də Azərbaycan və dünya iqtisadiyyatının hazırkı durumunu dərindən bilən, təhlil edən dövlət başçısıdır...

yazısı səh.8-də

## Ermənistanın "İsgəndər" təhdidinin sorağı ABŞ-a çatdı - mətbuatdan SOS!

yazısı səh.7-də

## Türkiyədə mübarizə qızışır: CHP nəticələrin ləğvini tələb edir

yazısı səh.4-də

## Tanınmış rusiyalı analitikdən Qarabağda müharibə anonsu

yazısı səh.11-də

## Bankların "qara siyahı"ları əhalinin həyatını qaraldır

yazısı səh.6-da

## Deputatın "avara" dediyi 1 milyon 800 min azərbaycanlı...

yazısı səh.12-də

## Ölkəni varlandıracaq 5 məhsul-ekspertlər danışır

yazısı səh.6-da

## ABŞ-la Şimali Koreya müharibə astanasında-dünya həyəcan təbili çalır

yazısı səh.10-da

## Müəllimin şagirdi döyməsi cinayətdir, yoxsa savab?

yazısı səh.13-də

## Bakıda 6 nəfərin qatilinə cəmi 10 il verdilər

yazısı səh.14-də

## Müxalifətçilər də siqaret qadağasını alqışlayır

yazısı səh.13-də



## Niyə Anar Ələkbərov? - birinci vitse-prezidentin köməkçisi barədə rəylər

yazısı səh.5-də



*Yevda Abramov:*

## "İsrail Knesseti heç vaxt uydurma soyqırımı tanımaz"

yazısı səh.9-da



## Tramplı dünyanın 90 günü - nələr dəyişdi...

yazısı səh.9-da

# “ANS-in qapılarını açıb, əşyalarını çölə atacağıq”

**AMEA-nın Zoologiya İnstitutu fəaliyyəti dayandırılmış ANS teleşirkətinə əmlakını hazırda yerləşdiyi binadan çıxarmaq üçün martın 23-dək vaxt vermişdi. Xəbərdarlığa baxmayaraq, ANS teleşirkəti hələ də ərazini tərk etməyib.**

Zoologiya İnstitutunun direktoru Elman Yusifov modern.az saytına açıqlamasında məsələnin artıq öz məcrasından çıxdığını deyib. “ANS rəhbərliyi hələ də bizim ərazini tərk etməyib. İş ondadır ki, telefonlarımıza da cavab vermirlər ki, məsələnin nə yerdə qaldığını dəqiqləşdirə bilək. ANS rəhbərliyinin gətirdiyi bəhanələr çoxdan qurtarıb. Əvvəllər 2 həftədən bir olsa da, telefon əlaqələri mümkün olurdu. İndi isə çox absurd situasiya yaranıb. ”Elm haqqında" Qanuna görə, yeni təsdiqlənmiş nizamnaməmiz var. Artıq ərazimizi icarəyə də verə bilərik. Qanun çərçivəsində sahibkarlıq fəaliyyəti də göstərə bilərik. Zoologiya mərkəzi yaratmışıq. Digər işlər də həyata keçirə bilərik. Amma qarşı tərəf ərazini boşaltmaqla bağlı heç bir təşəbbüs göstərmir. Heç nə başa düşmürük. Əmlaklarını götürüb getmirlər ki, işimizi bilək". İnstitut direktoru deyir ki, yaxın vaxtlarda ANS-ə rəsmi məktub yazılacaq.

“Səbrin də bir limiti var. Düşünürəm ki, 10 gün də dözək, sonra əməli işə keçmək olar. 10 gündən sonra rəsmi məktub yazacağıq. Güman ki, onların ev ünvanları var. Ev ünvanlarına bildiriş yazıb göndərəcəyik ki, 10 gün ərzində gəlib əşyalarını götürüb getsinlər. Əgər getməsələr, bələdiyyənin, sahə müvəkkilinin iştirakı ilə qapıları açıb ANS-in əşyalarını bayıra çıxaracaq, sonra da qapıları özümüz bağlayacağıq. Başqa variantımız yoxdur”.

# Bağlanmış bankların əmlakı hərracda satılacaq

**Azərbaycanda ləğvetmə prosesində olan kommersiya banklarının əmlakının satışı açıq hərrac yolu ilə həyata keçiriləcək. “Report” xəbər verir ki, bu barədə dünən keçirdiyi mətbuat konfransında Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun (ADIF) icraçı direktoru Azad Cavadov məlumat verib.**

Onun sözlərinə görə, hazırda bu məqsədlə iki hərrac mərkəzi ilə danışıqlar aparılır: “Bütün əmlakların qiymətləndirilməsi başa çatıb. Əvvəlcədən bu barədə məlumat veriləcək, əmlakın şəkli, ölçüləri, ilkin satış qiyməti bildiriləcək. İstənilən şəxs qaydalara uyğun olaraq beh ödəyəcək və hərrac mərkəzlərində bu hərraclar baş tutacaq. Prosesə həm ADIF, həm də bankların kreditorları nəzarət edəcək. Rübdə bir dəfə kreditorlara əmlakın satışı ilə bağlı hesabat veriləcək”.

# Yas çadırının qiyməti bahalaşdı

**Azərbaycanda dəfn mərasimi üçün çadır kirayəsi xidməti bu ilin mart ayında əvvəlki ayla müqayisədə 1% bahalaşıb. “Report” bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.**

Rəsmi statistikaya əsasən, bir günlük çadır kirayəsinin orta aylıq qiyməti martda 93,10 manat təşkil edib. Orta aylıq qiymət yanvarda 90,61 manat, fevralda 91,78 manat olub ki, bu da yanvarda aylıq 3,3%, fevralda isə 1,4% bahalaşma deməkdir.

Qeyd edək ki, dəfn mərasimi üçün çadır kirayəsi istehlak səbətinə daxil olan 100 xidmətdən biridir. Bildirək ki, “İstehlak səbətinə daxil olan məhsulların siyahısı” İqtisadiyyat Nazirliyi ilə razılaşdırılıb və Dövlət Statistika Komitəsinin 2016-cı il 30 dekabr tarixli sərəncamı ilə təsdiq edilib. Siyahı əhalinin istehlak xərclərinin tərkibində daha az payı olan məhsul və xidmətlərin istehlak səbətindən kənarlaşdırılması, daha çox paya malik olan məhsul və xidmətlərin əlavə olunması və bəzi mövcud məhsulların səciyyəvi xüsusiyyətlərində dəyişikliklərin edilməsi nəticəsində formalaşdırılıb. Yeni istehlak səbəti 150-si ərzaq, 1-i tütün məmulatı, 269-u qeyri-ərzaq məhsulu, 100-ü xidmət növü olmaqla, 520 adda məhsul və xidmətdən ibarətdir. Bundan əvvəl isə istehlak səbətinə 159-u ərzaq, 1-i tütün məmulatı, 280-i qeyri-ərzaq, 105-i xidmət olmaqla, 545 adda məhsul və xidmət daxil olub.


## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Bu gün Əli İnsanovun məhkəməsidir

## İlqar Məmmədovun səhhətində ciddi problemlər yaranıb; AXCP sədrinin köməkçisinə isə əlavə ittihamlar irəli sürülüb

**Həbsdə olan REAL Hərəkatının sədri İlqar Məmmədovun səhhətində ciddi problemlər yaranıb. 2 saylı cəzaçəkmə müəssisəsində həbs həyatı yaşayan və bel ağrılarından əziyyət çəkən vicdan məhbusunun müalicə olunması ilə bağlı heç bir tədbir görülmür.**



Bununla bağlı “Yeni Müsavat”a REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova məlumat verib: “Aprelin 9-da sonuncu dəfə İlqarla görüşdük. Elə bir ciddi yenilik yoxdur. Səhhətindəki problemlər davam etməsinə baxmayaraq, müalicə olunmur. Belində ağrılar yaranıb. Evdən apardığımız bel plasterlərindən istifadə edir”.

Qeyd edək ki, İ Məmmədov 4 ildən çoxdur ki, həbsdədir. 2013-cü ilin yanvarındakı İsmayıllı hadisələrinə görə həbs edilib və Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il müddətində azadlıqdan məhrum edilib. Nüfuzlu beynəlxalq qurumların dəfələrlə onun azadlığa buraxılması ilə bağlı tələbləri olsa da, bu tələblər REAL sədrinin azadlığa buraxılmasına kömək etməyib.

Həbsdə olan AXCP sədrinin köməkçisi, “Azadlıq” qəzetinin yayım direktoru Faiq Əmirliyə qarşı yeni ittihamlar irəli sürülüb.

Bu barədə APA-ya F. Əmirlinin vəkili Aqil Layıcov məlumat verib. O bildirib ki, F. Əmirliyə qarşı Cinayət Məcəlləsinin 213.1- ci (vergidən yayınma) və 308.2-ci maddəsi (vəzifə səlahiyyətindən sui-istifadə) ilə yeni ittiham irəli sürülüb.

Qeyd edək ki, F. Əmirli Cinayət Məcəlləsinin 283.1 (Milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) və 168.1-ci (Dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşların qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə) maddələri ilə təqsirləndirilirdi.

**Bu gün Qaradağ Rayon Məhkəməsində sabiq səhiyyə naziri Əli İnsanovun da növbəti məhkəmə prosesi keçiriləcək. Proses ifadələrlə davam edəcək.**

❑ **Cavanşir ABBASLI**

# Yaşlı qadın 1600 manatını avtobusda itirdi, bir gün sonra polis tapıb özünə qaytardı

## Qazax sakini olan onkoloji xəstə Daxili İşlər Nazirliyinə minnətdarlıq etdi

**Dünən musavat.com saytına Hüseynova Sona adlı vətəndaş müraciət edib. O bildirib ki, 16 aprel tarixində, 20.15 radələrində pulqabındakı 1600 AZN məbləğindəki pulu itirib. Həmin vaxt 12 saylı marşrut avtobusu ilə Zığdan Xətai rayonu ərazisindəki “Bizim market”ə qədər gələn qadın avtobusdan düşəndə yolpulunu ödəyib.**




Amma marketə çatanda pulqabını itirdiyinin fərqinə varıb. Vətəndaşın pulqabında sözügedən məbləğdə vəsaitlə yanaşı, iki təqaüd kartı da olub. Baş vermiş hadisə ilə bağlı ərazi üzrə Xətai rayon 36 saylı polis bölməsinə müraciət edən şikayətçiyə bir gün sonra pulqabı qaytarılıb: “Pulqabımın içində 1600 manat olduğu kimi qalırdı. Üstəlik, bütün sənədlər də yerində idi. Bu, mənimçün çox böyük sevinc oldu. Polislərimizə təşəkkür edirəm. Belə tez formada pulun tapılmasına görə hədsiz dərəcədə minnətdaram”.

Baş vermiş hadisəni 36 saylı polis bölməsindən də təsdiqlədilər. Bölmədən musavat.com-a bildirildi ki, 1952-ci il təvəllüdlü S.Hüseynova adlı vətəndaş Qazax rayonu doğumludur və Nərimanov rayonunda qeydiyyatdadır. Onkoloji xəstə olan qadın sözügedən məbləğdə vəsaiti müalicəsi üçün nəzərdə tutubmuş. Polis onun müraciətinə həssaslıqla yanaşıb və müraciət daxil olduğu dəqiqədən etibarən bütün avtobuslar, avtobuslardakı təhlükəsizlik kameraları araşdırılıb. Araşdırma nəticəsində həmin avtobusa minən bütün sərnişinlərin kimliyi müəyyənləşdirilib. Son anda onlardan birinin həmin pulqabını yerdən tapması aşkarlanıb. Pulu tapan şəxs onu polisə təhvil verib. Avtobus və kamera görüntülərinin həssaslıqla araşdırılması nəticəsində 24 saat ərzində vətəndaşın böyük məbləğdə pulu özünə qaytarılıb.

S.Hüseynova bununla bağlı Daxili İşlər Nazirliyi rəhbərliyinə məmnunluq teleqramı vurub.



# Türmələrə yeni rəis təyinatları

**Penitensiar Xidmətdə kadr dəyişiklikləri baş verib. APA-nın əldə etdiyi məlumata görə, əvvəllər 5 saylı cəzaçəkmə müəssisəsinin rəisi olmuş və ədliyyə orqanlarından tərxis edilmiş Etibar Məmmədyarov yenidən xidmətə bərpa edilib. O, 10 saylı cəzaçəkmə müəssisəsinə rəis təyin edilib.**

6 saylı cəzaçəkmə müəssisəsinin rəis müavini Rasim Bayramov isə 7 saylı cəzaçəkmə müəssisəsinə rəis təyin olunub. R. Bayramov əvvəllər 11 saylı cəzaçəkmə müəssisəsinin rəisi, daha sonra 16 saylı cəzaçəkmə müəssisəsində rəis müavini vəzifələrində çalışıb.

10 saylı cəzaçəkmə müəssisəsinin rəisi olmuş Eyvaz Əsgərov isə 15 saylı cəzaçəkmə müəssisəsinə rəis müavini təyin edilib. E. Əsgərov nəqliyyat nazirinin keçmiş müavini Arif Əsgərovun qardaşıdır.

Penitensiar Xidmətin Tərbiyə İşinin Təşkili İdarəsinin rəisi Mayıl Məmmədov isə vəzifəsindən azad edilib. O, Salyanda yerləşən 5 saylı cəzaçəkmə müəssisəsinin rəisi vəzifəsinə təyin olunub. Hazırda Tərbiyə İşinin Təşkili Vəzifəsinin rəisi vəzifəsini Emil Həsənov icra edir.

# İTV-nin Yayım Şurasına yeni sədr seçildi

**İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTV) Yayım Şurasının iclası keçirilib. Milli Televiziya və Radio Şurasından (MTRŞ) modern.az-a verilən məlumata görə, iclasda təşkilati məsələyə baxılıb.**

İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının yekdil qərarına əsasən Muxtar Kazım oğlu İmanov İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədri seçilib.

Qeyd edək ki, M. İmanov AMEA Folklor İnstitutunun direktorudur.

# Türk-slavyan birliyi - Qərbə qarşı yeni blokun yaranması prosesinə start verilib

**"Rusiya ilə Türkiyə, müasir siyasi durumda əkiz qardaşları xatırladırlar. Bugünkü, yəni referendumdan sonrakı Türkiyə, razılaşın, əvvəlki deyil. Bu yeni Türkiyəni biz öz müttəfiqimizə çevirə bilərik. Türkiyə Avrasiya İttifaqının bərabərhüquqlu üzvü ola bilər. Bütün bunlar Avrasiya İttifaqının "slavyan-türk birliyinə" çevrilməsi ilə nəticələnə bilər. Bu, Avropada dominantlıq edən "Alman-roman xalqları" ittifaqına yaxşı, tutarlı cavabdı. Böyük Avrasiyanın gələcək taleyi məhz bu nöqtədən, bu siyasi iradədən asılıdır".**



Ağır çəkili Rusiya siyasi eksperti Sergey Markovun Türkiyədəki son referendumla əlaqədar verdiyi bu siyasi şərh dünya mass-media səhifələrində ildırım kimi çaxıb. Bəzi aparıcı dünya xəbər agentlikləri özlərində güc tapıb bu məxfi mesajı həls də nə həzm edə bilirlər, nə də ki, şərh.

Xahiş edirəm, bu şərhləri qulaqardına vurub, müəllifini, necə deyərlər, cibinizə qoymayın. **Sergey Markov** dünənin şərhçisi-filan deyil. Öz rəylərilə müasir Rusiya siyasətinin magistral yollarını təyin edən çox güclü siyasi fiqurdu. Məlum Türkiyə referendumunu o, elə ilk dəqiqələrindən başlayaraq anbaan, addımbaaddım izləyib. İlk nəticələr əldə edilincə gecə yarısı saat 00:30-da görün bir nə yazıb o, öz FB səhifəsində: "Ərdoğanı qələbə münasibətilə ilk olaraq baş müttəfiqi - Azərbaycan prezidenti İlham Əliyev təbrik etdi. Ancaq görəsən, Avropa siyasi liderləri necə, onu təbrik edəcəklərmi? Yoxsa əsəbdən lap bozaracaqlar? İndi Ərdoğanın qələbəsindən sonra, Avropa siyasi elitası üzvləri istəsələr də, istəməsələr də növbəti kiçik "referendum" iştirakçılarıdırlar. Bir-birilərinə gecənin bu vaxtında zəng edib soruşurlar: "Neynəyək? Təbrik edəcəksənmi onu?""

***

Zəlzələ effektli bu şərhdən sonra siyasətçilər gündəmi tərk edib mövzunu rus kilsəsinə, pravoslav müəlliflərinə etibar edirlər. Rus kilsəsi burda ilk dəfə pərdə arxasından çıxaraq məsələyə öz sərt reaksiyasını sərgiləməyə tələsir. Belə ilginc, sensasion şərhlərin ən maraqlısı pravoslav publisisti Kirill Frolova məxsusdu. Məşhur "Çarqrad" saytında nəşr edilmiş bu uzun şərhdən kiçik çıxarışları biz indi diqqətinizə çatdırırıq. Yadda saxlayın, müasir Rusiya-Türkiyə münasibətlərinin strateji impuls almağında, yeni məzmun kəsb etməyində ən maraqlı tərəf indi məhz Rus pravoslav kilsəsi, şəxsən patriarx Kirilin özüdür. Yəni biz Allahın lütfü ilə böyük üstünlük əldə etmişik - rus kilsəsi indi regionda öz maraqlarını güdür, nəinki ona tam zidd erməni maraqlarını. Məqalədəki çıxarışlarla tanış olsaq, bu bizə ovcunuzdakı su kimi aydın görünəcək: "Razıyam, erməni və yunan simpatizanlarına Türkiyə ilə Rusiya ittifaqı əsla qəbuledizməzdir. Ancaq biz bu ittifaqı qəti olaraq qəbul edirik. Niyə? Çünki mövcud siyasi reallıqlar çərçivəsində Bizans mirası ancaq bu halda dirilib gündəmi zəbt edə bilər bizim üçün. Qərbin Türkiyə ssenarisi belə idi - Krım, Qafqaz, Volqa boyu ərazilərdə guya Türkiyə at oynatmalı, Moskva təsirini zəifləmtməli idi.

Qərb diplomatiyası bizim bu yeni siyasi kursumuza səfir Andrey Karlovun öldürülməsi ilə cavab verdi...

Çar Rusiyası, oxşar siyasi xətti İstanbuldakı səfiri Konstantin Leontyevin vasitəsilə həyata keçirirdi...

Balkan slavyanlarını, yunan qardaşlarımızı, pravoslav dünyasını Avropa İttifaqı diktaturasından azad etməyin yeganə yolu bax, bu yeni Bizans layihəsindən keçir indi...

Katolik Qərb dünyası ilə ittifaq, Roma Papasına haqsız etimad tarix boyu biz pravoslavlara nə verdi ki? Heç nə. Ancaq acı məğlubiyyətlər silsiləsi, vəssalam. Qərblə, Roma ilə bizim bu həssas regionda hədəflərimiz dabandabana ziddi. İstanbul patriarxı Varfolomey indi daha çox Kiyev separatistlərini xatırladır, nəinki adi bir pravoslav keşişini. Yadda saxlayın, bizim patriarx Kirilin 70 illiyi təntənəli şəkildə qeyd edildiyi bir gün bax, bu İstanbul patriarxı Varfolomey öz başından böyük qələt edib, başını daşa döyüb - həmin gün Ukrayna Böyük Radası spikeri Andrey Parubini İstanbulda salamlayıb. Səfərin gizli məzmunu isə sən demə, belə imiş".

***

**Kirill Frolov daha sonra məqaləsində yazıb:** "Kiyev kilsəsinin Moskva patriarxatına tapşırılmağı tarixi 1686-cı ildən rəsmiləşib. O vaxt, indiki İstanbul patriarxı Varfolomeyin sələfi Patriarx Dionisiy Kiyev kilsəsini Moskva patriarxlığı tabeçiliyinə əbədi olaraq, necə deyərlər, məhşər gününəcən etibar edib".

Ancaq indi deyəsən, rəsmi Kiyev bu ittifaqı ləğv edib tarixin təkərini geriyə fırlatmaq, Ukrayna kilsəsinin müstəqilliyini elan etməyə hazırlaşır. Mövzunun həlli, kilid açarı isə 300 il əvvəlki kimi yenə də İstanbulda, partiarx Varfolomeyin dərin ciblərindədir. Dövrü mətbuata bu barədə məlumat verən Andrey Parabiy öz gələcək planlarını artıq heç kimdən gizləmir: "Mən, Böyük Patriarx Varfolomeyi Kiyevə dəvət etdim. Qoy gəlib bizim deputatlarla, Ümumukrayna Kilsə Şurası üzvləri ilə birbaşa görüşsün".

**Bu müsahibəsində Andrey Parubiy ağzından bəzi "quş"lar da buraxıb. Danışıqların bəzi gizli detallarını özü də bilmədən, yaxud bilərəkdən mətbuata ötürüb:** "Varfolomey Ukraynadakı gərgin duruma yaxşı bələddi. 16 iyun 2016-cı il tarixində bizim Rada, müqəddəs Varfolomey ünvanına müraciət edərək Ukrayna kilsəsinə müstəqillik verilməsi xahişini orda səsləndirib. 4793 saylı bu qərarı 245 deputatımız təsdiqləyib. Bu da bəs edir ki, müraciət gələcək rəsmi prosesə start versin".

***

Moskva üçün ölümcül zərbə sayılan bu prosesin ilk addımları hələ ötən il mart ayında Ukrayna prezidenti Petro Poroşenko tərəfindən atılıb. Siftəni o edib bu məsələdə, sonrakı detalları ötürüb Andrey Parubiy kimi "ələkçinin qıl verənlərinə".

**Moskva patriarxı Kirillə müqəddəs Varfolomey arasındakı onsuz da gərgin münasibətlər öz sınma nöqtəsinə gəlib çatıb son vaxtlar. Görün bir bu Varfolomey öz həmkarı Kiril barədə nə deyir indi:**

"Təəssüf, Rusiya hökuməti kilsə işlərinə kobud müdaxilələr ənənəsini indi də davam etdirir. Müqəddəs Kirill üçün pravoslavların vəhdəti məsələsi ruhla deyil, təşkilatlanma ilə əlaqədardı sanki. Vatikanın bu tarixi səhvini indi Moskva təkrarlayır".

***

**Qayıdaq burda Kirill Frolovun mövzuyla əlaqədar məlum məqaləsinə. Görün orda bu çox məlumatlı müəllif nə deyir:** "Varfolomey, Qərbin antixristian qlobalistik qüvvələri ilə sıx əməkdaşlıq çərçivələrində fəaliyyət göstərir. O, xristianlığa zidd "Lissabon deklaratsiyası" altına öz "laykını" qoymaqdan əsla çəkinməyib. Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx əməkdaşlıq edən bu şübhəli şəxs müasir zamanda pravoslavların bir nömrəli düşmənidir. Andrey Karlovun qətlində bu məxfi qüvvələrin iştirakı indi istisna sayılmamalı, tam tərsinə, dərindən öyrənilməlidir. Bütün izlər Romaya...üzr istəyirəm, İstanbulun Fənər məhəlləsinə, Kiyevə aparır indi bu cinayətin tədqiqatında... Varfolomeyin gülənçilərlə, FETÖ ilə əlaqələri də artıq kimsəyə, ilk növbədə Ərdoğana gizlin deyil".

***

**Varfolomeyin gülənçilərlə, şəxsən Fətullah Gülənlə, Kiyevlə, Roma papaları ilə məxfi əlaqələri bu cür söz-söhbətlərdən sonra Rusiya mətbuatını əməlli-başlı silkələyib. Rus kəşfiyyatı burda məcbur qalıb öz gizli arxivlərini açmağa:** "Amerikaya, Pensilvaniyaya öz məlum köçündən düz bir il əvvəl Fətullah Gülən 9 fevral 1998-ci il tarixində Roma Papası İoann Pavel 2-ciylə məxfi görüş keçirib. Görüşdən düz 12 gün sonra 2-ci İohan Pavel öz 20 yeni kardinalını təyin edib. İki nəfəri isə özünün "Gizli kardinalı" adlandırıb. Adına latınca "İn faktore" deyilən bu adətə görə, Roma papasının gizli kardinal seçmə haqqı var. Yalnız ölüm ayağında ikən o, bu kəslərin adını öz növbəti xələfinin qulaqlarına pıçıldamalıdır. Təyin edilmiş iki məxfi kardinaldan biri məhz Fətullah Güləndir. Səfir Karlovun qətlindən sonra bu barədə dərindən düşünməyə dəyər. Gülənçilərin Moskva ilə Ankara əlaqələrini dəfələrlə pozmaq cəhdləri hamıya yaxşı məlumdu. İndi özünüz düşünün, hansı növbəti təxribatlar gözlənilir bu sahədə? Kimlər idarə edir bu gülənçiləri, gizli kardinalları, Kiyev kilsə separatistlərini?"

***

Gördüyümüz kimi, mətbuatda səsləndirilmiş "Türk-slavyan birliyi" ideyası təkcə Nazarbayevin şəxsi tabeçiliyində deyil artıq. Bu ideya "pilot layihəsi" çərçivəsindən çıxaraq artıq öz real, işlək konturlarını qazanır yavaş-yavaş. Burda əsas hədəf Pravoslav kilsəsinin gələcəyidir. Kim girəcək Aya Sofya kilsəsinə? Kim bu məbəddə ilk olaraq öz şamını yandıracaq?

Gündəmin bir saylı mövzusu indi budu. Qarşıda Putinin İstanbula məlum səfəri gözlənilir.

Türk-slavyan qardaşlığı ideyası tarixin sınağından dəfələrlə üzü ağ, alnı açıq çıxıb həmişə. Bizim həm maraq dairələrimiz eynidir, həm də düşmənlərimiz. Qarabağ düyününün məhz bu kontekstdə açılacağına da mən artıq indidən qəti əminəm. Özünün son Bakı səfəri zaman Türk dünyasının ağsaqqalı, xaqani Nursultan Nazarbayev Bakıda ikən sözsüz oxşar mövzuları öz həmkarı prezident ilham Əliyevlə bölüşüb. Təhlükəsizlik barədə öz yeni konsepsiyasını səsləndirib.

Tarix özünün ən gərgin, həlledici dövrünü yaşayır indi. Siyasətçilərdən sonra meydana kilsə xadimləri qarışır. Xəncərlərini uzun əbaların ətəyi altında gizlətmiş gizli, açıq kardinallar öz son döyüşlərinə hazırlaşırlar.

**Qələbə bizim olacaq bu sərt qarşıdurmada. Axı uduzmaq haqqımız yoxdu indi bizim.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 81 (6695) 19 aprel 2017

# Türkiyədə mübarizə qızışır: CHP nəticələrin ləğvini tələb edir

## ATƏT referenduma mənfi qiymət verdi, Ərdoğan isə "yerini bil" dedi; Azərbaycan müxalifəti proseslərdən narahatdır

**Aprelin 16-da Türkiyədə keçirilən referendumdan sonra prezident Rəcəb Tayyib Ərdoğanın hakim Ədalət və İnkişaf Partiyasına (AKP) qayıtması gündəmə gəlib. AKP parlament qrupunun həmsədri Mustafa Elitaş bildirib ki, Ərdoğan konstitusiyaya edilən dəyişikliklərə əsasən, qurucusu olduğu partiyaya qayıdacaq: "26-27 aprelə kimi yekun nəticələr açıqlanarsa, dərhal partiyamızı şərəfləndirməsi üçün ölkə başçısına dəvət göndərəcəyik. Ərdoğanın AKP-yə dönməsindən şərəf və qürur duyuruq". O, Ərdoğanın yenidən sədr seçilməsi üçün qurultayın keçiriləcəyini istisna etməyib.**



Referendumdan sonrakı üç ay üçün Türkiyə hökuməti fövqəladə vəziyyəti uzadır. Baş nazirin müavini Numan Kurtulmuş bildirib ki, Nazirlər Kabineti müvafiq qərarı Milli Təhlükəsizlik Şurasının tövsiyəsinə əsasən qəbul edib. 2016-cı ildə baş vermiş çevriliş cəhdindən sonra elan olunan fövqəladə vəziyyətin müddəti artıq bir neçə dəfədir ki, uzadılır.

Türkiyənin bir sıra şəhər və qəsəbələrində isə konstitusiya dəyişikliyinə qarşı etiraz aksiyaları başlayıb. Türkiyə mediasının xəbərlərinə görə, minlərlə şəhər sakini İstanbulun Beşiktaş bölgəsinə toplaşıb. Daha 2 min nəfər isə Kadıköydə onlara dəstək verib. Aksiyaçılar əllərindəki "Yox" şüarları ilə Yüksək Seçim Kurulunun (YSK) binasına qarşı irəliləyiblər. Aksiyaçılar ölkədə konstitusiya dəyişikliyinə yol verilməyəcəyini bildirərək tək adam hakimiyyətinin ölkəni uçuruma aparacağını bildiriblər. Aksiyalar ölkənin cənub-şərqində də keçirilib.

Ana müxalifət partiyası olan CHP isə referendumun nəticələrinin ləğv edilməsi ilə bağlı YSK-ya rəsmi müraciət edib. Partiya sədrinin köməkçisi Bülent Tezcan deyib ki, CHP-nin ləğvlə bağlı tələbinin əsasında 2,5 milyon möhürsüz bülletenin etibarlı sayılması dayanır. Partiyadan bildirilib ki, ilk etapda nəticələr ləğv edilməsə, Ali Məhkəməyə və Avropa Məhkəməsinə müraciət edəcəklər.

Bu arada bəlli olub ki, ABŞ prezidenti Donald Tramp Ərdoğana zəng edərək onu qələbə münasibətilə təbrik edib. "The Guardian" yazır ki, Trampın təbriki nəinki Avropa təsisatlarının referendum barədə ilkin rəyləri, hətta ABŞ-ın öz Dövlət Departamentinin bəyanatı ilə ziddiyyət təşkil edir. ABŞ Dövlət Departamentinin hesabatında Ərdoğana vətəndaşların təməl haqlarına hörmət göstərilməsi üçün çağırış edilir, təşviqat kampaniyası ərzində baş vermiş bir sıra pozuntulardan bəhs olunurdu.

Avropa liderləri isə Türkiyə referendumunun ardınca bu ölkədə demokratiyanın gələcəyindən narahatlıq ifadə ediblər. Onlardan bəziləri ehtiyatla, bəziləri isə açıq şəkildə referendumun keçirilməsi tərzindən və nəticəsindən xoşlanmadıqlarını bildiriblər.

Avstriya kansleri Kristian Kern deyib ki, bu referendumla Türkiyənin Avropa İttifaqına üzvlük arzuları dəfn olunub.





**ATƏT-in Demokratik İnstitutlar və İnsan Haqları Bürosu isə referendumun Avropa Şurası standartlarına uyğun olmadığını bəyan edib. ATƏT-in Müşahidə Missiyasının rəhbəri Sezar Florin Predanın yaydığı bəyanatda deyilir ki, referendum ərəfəsində aparılan təşviqat kampaniyası zamanı media resurslarında tərəflərə bərabər imkanlar yaradılmayıb:** "Referendumun texniki aspektləri yaxşı təşkil edilsə də, islahatların əsas aspektləri, fundamental azadlıqların məhdudlaşdırılması və mümkün mənfi effektlərə dair ictimaiyyətə tərəfsiz məlumatlar verilməyib. Ümumilikdə referendum Avropa Şurası standartlarına uyğun keçirilməyib. Hüquqi çərçivə əsl demokratik prosesin həyata keçirilməsi üçün qeyri-kafi idi".

**Müşahidə missiyası hesab edir ki, referendum ərəfəsində ölkədəki durum, ilk növbədə qüvvədə olan fövqəladə vəziyyət mediada siyasi partiyaların mövqeyinin bitərəf işıqlandırılmasına yol açmayıb və hakim partiyaya üstünlük verilib. Ərdoğan isə bildirib ki, ATƏT öz yerini bilməlidir:** "Birincisi, öz yerinizi bilin! Biz sizin siyasi baxımdan əsaslandırılmış hesabatlarınıza qulaq asan deyilik", - deyə agentlik Ərdoğanın sözlərini sitat gətirib.



Azərbaycanın tanınmış müxalifət partiyalarının sədrləri də Türkiyədə keçirilən referendumun nəticələri ilə bağlı açıqlamalar veriblər.

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, Türkiyə bizim üçün sıradan bir dövlət olmadığı, İslam dünyasını demokratik cəhətdən təmsil eləyən ölkə olduğu üçün onun daxilində gedən proseslər şübhəsiz ki, bizi də maraqlandırır:** "Bu baxımdan, Türkiyədə baş verənlər bizim də diqqət mərkəzimizdədir və baş verənlər bizi narahat edir. Əslində bu referendum Ərdoğan üçün qələbə ilə yekunlaşmadı. Bu, Ərdoğanın referendumdan sonra ilk çıxışından da görünürdü. Hər bir halda seçicinin səsinə, onun qərarına hörmət etmək lazımdır. Amma Türkiyənin gələcəyi üçün bunun fəsadları olacaq. Biz qardaş ölkədə arzuolunmaz hadisələri qətiyyən istəmirik. Türkiyənin bizim üçün xüsusi yeri var. Biz də istəyirdik ki, Türkiyə bənzəyək. Amma Türkiyəni Misirə, Əlcəzairə, Tunisə, İraqa, Liviyaya, İrana oxşatmağa çalışdılar. Dahi Atatürk deyirdi, "sizə Cümhuriyyət yaraşır". İndiki siyasət isə deyir ki, "yox, türk dünyasına diktatura, krallıq yaraşır". Şərqdə demokratiyanın nümunəsi idi Türkiyə. Düzdür, indi Türkiyənin daxilində başqa problemlər də var, terror, daxili qarşıdurma qardaş ölkənin ciddi problemidir. Amma bütün bunlar əsas vermirdi ki, Türkiyədə təkbaşına hakimiyyət sistemi olsun. Oldusa, öz seçimləridir, biz uzağı şərh verə bilərik".

**M.Mirəlioğlu qeyd etdik ki, Türkiyəyə münasibətdə bir-biri ilə fərqli mövqelərdə olan siyasi qüvvələrin, əsasən də CHP, MHP-nin bir hissəsi və PKK-nın siyasi qanadı kimi tanınan HDP-nin sistem dəyişikliyində eyni mövqedən çıxış etməsinin özünəməxsus səbəbləri var:** "Böyük şəhərlər İstanbul, Ankara, İzmir "yox" dedi. Bu məqam çox mühüm məqamdır. Qeyd olunan qüvvələrin fikirləri sistem dəyişikliyi məsələsində üst-üstə düşsə də, məqsədlər əslində fərqlidir. Necə deyərlər, birinin davası din davasıdır, birinin davası dən davasıdır. Din davası ilə dən davasını ayırmaq lazımdır. Burada böyük əksəriyyət Türkiyənin sabahına görə səs verib. Türkiyəni bütövlüyünü nəzərə alaraq səs verib. Bölücülər isə öz davalarının sabahına səs veriblər. Yəni əslində bu məsələdə də mövqelərin üst-üstə düşməsi söhbəti yoxdur. Zahirən mövqelərin eyni olduğu görünür, mahiyyət etibarilə isə elə deyil. Hər kəs öz davasını aparır. Biri vətən, torpaq, bütövlük uğrunda dava aparır, o biri isə bu məsələdən sui-istifadə edir".

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, referendumun nəticələrinin necə olması türk xalqının daxili işidir və xalqın iradəsinin ifadəsinə hörmətlə yanaşmaq lazımdır:** "Biz Türkiyənin maraq və mənafelərinə öz dövlətimizin və xalqımızın maraq və mənafeləri kimi həssas yanaşırıq. O baxımdan, son proseslərin Türkiyənin möhkəmlənməsinə, daha müasir demokratik dövlətə çevrilməsinə xidmət eləməsini arzu edirik. Bizim üçün referendumun nəticələrindən başqa, səsvermənin demokratik olması, seçkiyə dövlət tərəfindən müdaxilə olmaması məsələsi də böyük əhəmiyyətə malikdir. Səsvermələrin demokratik olması olduqca mühüm əhəmiyyətə malikdir. Arzu edirik ki, səsverməyə qarşı irəli sürülən iddiaların seçkinin nəticələrinə təsir edəcək səviyyədə olmadığı aşkara çıxsın. Daxildə və xaricdə bir sıra qüvvələr Türkiyəni vətəndaş müharibəsinə həddinə gətirib çıxarmağa çalışdığı müşahidə olunur. Biz tezliklə bu cür zərərli proseslərin aradan qaldırılmasını arzulayırıq".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə yada saldı ki, rəsmi nəticələr 10 gün sonra elan olunacaq:** "YSK-nın seçkinin gedişində verdiyi qərar da mübahisə doğurub, 1, 5 milyon bülletenin məsələsi dartışılmaqdadır, ATƏT-in rəyi mənfidir, daxildə kiçik də olsa etiraz aksiyaları başlayıb. İlkin olaraq deyə bilərik ki, bu referendum Türkiyə cəmiyyətini bütövləşdirmədi, əksinə, dərin bir uçurum yaratdı. Xüsusən iri şəhərlərdə "yox" cavabının yüksək olması da onun göstəricisidir ki, növbəti mərhələ Türkiyə üçün sadə və rəvan olmayacaq. 2019-cu ildə qüvvəyə minəcək konstitusiya dəyişiklikləri nəticə etibarilə yeni hakimiyyətin formalaşmasının anonsunu indidən verir. Referendum öncəsi verilən vədləri qarşıdakı iki ildə yerinə yetirmək mümkün olmayacaq və artıq Türkiyə cəmiyyəti sadə təbliğata o qədər inamlı görünmür. Ona görə də hesab edirəm ki, bu referendum AKP-ni yeni illərə daşımadı. Bundan sonrakı seçkilərdə AKP indiyə qədər olan qələbələrini təkrarlaya bilməyəcək".

**İ.Ağazadə vurğuladı ki, Şanlı Urfa istisna olmaqla, kürdlərin kompakt yaşadığı bütün şəhər və qəsəbələrdə "yox" cavabının üstün olması, HDP-nin prezidentli respublika üsul-idarəçiliyinə qarşı çıxmasının səbəbləri var:** "HDP anlayır ki, parlamentli respublika idarəçiliyi olmasa, demokratiya olmasa, onların parlamentə girişi, siyasətlə məşğul olması mümkün deyil və daha çox silahlı mübarizə müstəvisi davam edəcək. Ona görə də onlar parlamentli üsul-idarəçiliyin saxlanmasında maraqlıdırlar. Gələcək siyasi fəaliyyətdə daha çox şeylər əldə etmələri üçün bu sistemin saxlanmasını istəyirlər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 81 (6695) 19 aprel 2017



# Niyə Anar Ələkbərov? - birinci vitse-prezidentin köməkçisinin dosyesi

## Politoloq: "Düşünürəm ki, vitse-prezidentin ətrafında elə bir komanda formalaşacaq ki..."

**Heydər Əliyev Fondunun icraçı direktoru, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın köməkçisi təyin olunub.**

Anar Ələkbərov vergilər nazirinin müavini, III dərəcəli dövlət vergi xidməti müşaviri, Azərbaycan SSR dövründə ciddi vəzifə sahibi olan Sahib Ələkbərovun oğludur. Onunla bağlı hələ ki vikipediya məlumatları mövcud deyil.

**A.Ələkbərovun fəaliyyəti barədə məlumatlı olan politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirib ki, bu təyinatı yüksək qiymətləndirir:** "Anar Ələkbərovun fəaliyyəti barədə müxtəlif mənbələrdən məlumatlıyam. O, peşəkar idarəedicidir və bütün verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirir. Eyni zamanda özü də təşəbbüskardır. Müxtəlif təşəbbüslərlə çıxış edib, onları yüksək səviyyədə reallaşdırmağa çalışır. Mehriban Əliyeva vitse-prezident təyin edilən zaman da proqnozum belə idi ki, o, özünə yeni komanda yığacaq. Bu komandada isə bizim öyrəşdiyimiz insanlar olmayacaq. Bildirmişdim ki, komandanın üzvləri Nazirlər Kabinetindəki yaşlı insanlar deyil, ideyalı, xaricdə təhsil alan gənclər olacaqlar.

Anar Ələkbərov uzun müddətdir ki, Heydər Əliyev Fondunda çalışır və birinci vitse-prezidentlə də görülən işlərlə bağlı bir-birilərini yaxşı anlayırlar. Ona görə də hesab edirəm ki, təyinat uğurludur və proseslərə təsiri olacaq. Çünki islahatları, neqativ hallarla mübarizəni gücləndirmək lazımdır. Prezident Yevlaxdakı toplantılarda xeyli sayda qarşıya qoyulmuş vəzifələrdən danışdı. Bəs bunları kim və necə yerinə yetirəcək? Təbii ki, köhnə komanda ilə bu vəzifələri yerinə yetirmək problematik görünür. Çünki 83 yaşlı baş nazirlə, köhnə vərdişlərdən əl çəkməyən bəzi məmurlarla prosesləri sürətləndirmək çətin olacaq. Prezident necə ki, vaxtilə "ASAN xidmət"i yaratdı və bu xidmət bir nümunə halına gəldi, düşünürəm ki, Mehriban Əliyeva da formalaşdıracağı komanda və Anar Ələkbərovla birlikdə məsul olduğu sahədə yeniliklər gətirə biləcəklər".

**Politoloq bildirib ki, hazırda hökumətdə yeniliklərə çox ehtiyac var:** "Bir məsələyə diqqət edək ki, bugünlərdə "Ovçular evi"nin yerində bina tikmək istəyirdilər və ətrafdakı ağacları da kəsirdilər. Prezident buna reaksiya verdi. Lakin prezidentin bütün bu kimi hadisələrə reaksiya verməsi problematikdir. Gərək ki, çevik informasiyası olsun. Düşünürəm ki, vitse-prezidentin ətrafında elə bir komanda formalaşacaq ki, baş verən hadisələr haqqında prezidentin məlumatlandırılması işi sürətləndiriləcək. Baş verənlər göstərir ki, artıq dövlət başçısı alternativ mənbələrdən informasiya almaq imkanına malikdir və yerində araşdırmalar aparılır. Ola bilər ki, köhnə komanda nəyisə gizlədə bilərdi. Ancaq vitse-prezidentin ətrafında yeni formalaşan komanda bu proseslərə vaxtında reaksiya verir və dövlət başçısına da alternativ mənbələrdən xəbər alma imkanı yaradır. Xatırladım ki, dövlət başçısı bir müddət öncə baş redaktorlarla görüşündə də bildirmişdi ki, bəzən məlumatları məndən gizlətməyə çalışırlar, ancaq mən mətbuatı da izləyirəm, alternativ mənbələrə də çıxış imkanlarım var.

Anar Ələkbərovun və yeni komandanın fəaliyyəti də imkan verəcək ki, dövlət başçısı alternativ mənbələrdən də bu xəbərləri almaq imkanına malik olsun. Məsələn, bir daha "Ovçular evi" ətrafında baş verən hadisəyə diqqət edək. Orada ağacları kəsənlər düşünürdülər ki, hansısa oliqarxa bağlıdırlar və istədiklərini edə bilərlər. Görünür, hakimiyyətin içində müəyyən dəyişikliklər baş verir ki, bu cür hadisələrə reaksiya verilir, özbaşınalıqların qarşısı alınır. Düşünürəm ki, Anar Ələkbərovun təyinatı ilə neqativ halların ortadan qaldırılması prosesi, gənclərin daha çox irəli çəkilməsi, "ASAN xidmət"ə bənzər strukturların yaranması halları daha da sürətləndiriləcək. Nəticədə təhsilli gənclər irəli çəkiləcəklər. Azərbaycanda xeyli sayda xaricdə təhsil alan gənc var. Bu insanları indi irəli çəkmək lazımdır".

❑ **Əli RAİS**

**Aprelin 15-də prezident İlham Əliyevin göstərişi ilə Yasamal rayonu, Mətbuat prospektində yerləşən "Ovçular evi" ərazisində yaşayış binasının tikintisinin dayandırılması ölkə gündəminin əsas müzakirə edilən mövzularından biridir.**




# İki icra başçısının başı dərddə

## Son bir həftədə prezident İlham Əliyev iki dəfə - həm "Hacı Cavad", həm də "Ovçular evi" ilə bağlı yaranmış məsələyə şəxsən müdaxilə etməli olub, hər iki halda əhalini narazı salan söküntü işlərini dayandırmaq barədə göstəriş verib; Yasamaldakı qanunsuz tikinti ilə bağlı məsuliyyət Bakı merinin və İbrahim Mehdiyevin üzərində qalıb

Xatırladaq ki, tikinti "A-3 Sənaye Tikinti Korporasiyası" adlanan MMC tərəfindən başlanılıb. Şirkəti mövcud qanunları pozaraq ərazidə ağacları qanunsuz olaraq ağır texnika ilə məhv edib. Bu, ətraf binalarda yaşayan sakinlərin ciddi narazılığına səbəb olub. Ərazidə aparılan tikinti zamanı yol verilmiş qanunsuzluqlar və ağacların kəsilməsinə ölkə prezidenti İlham Əliyev sərt reaksiya göstərib, tikinti işlərinin dərhal dayandırılması və məsələnin nəzarətə götürülərək araşdırılması barədə göstəriş verib.

Rəsmi məlumata görə, ağacların qanunsuz kəsilməsi ilə bağlı şirkətə ümumilikdə 130 min 760 manat cərimə kəsilib.

Məlum olub ki, şirkət "Ovçular evi"nin ərazisində tikintinin icazəsini Bakı Şəhər İcra Hakimiyyətindən alıb. Hazırda "Ovçular evi" İctimai Birliyinin ərazisində qalan 27 ağacın mühafizəsinin təmin edilməsi üçün "A-3 Sənaye Tikinti Korporasiyası" MMC-yə məcburi göstəriş verilib və ərazi nəzarətə götürülüb.

İddialara görə, ərazidə Milli Məclisin deputatları üçün "Böyük Plaza" adlı yaşayış kompleksi, o cümlədən biznes-ticarət mərkəzinin inşa edilməsi planlaşdırılıbmış.

İndi əsas diqqətlər tikintiyə icazə vermiş Bakı meri Hacıbala Abutalıbova və Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyevin sonrakı taleyinə yönəlib. Çünki bu qanunsuz əməllərdə əsas məsuliyyət əsasən onların üzərinə düşür.

Prezident 2015-ci ildə Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanunu təsdiq edib. Məcəlləyə edilən dəyişikliyə əsasən, tikintiyə dair sənədlərin tamlığı təmin edildikdən sonra, müvafiq icra hakimiyyəti orqanı tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan və müvafiq icra hakimiyyəti orqanı tərəfindən tikintinin təyinatına uyğun olaraq müəyyən edilən aidiyyəti qurumlara rəy bildirilməsi üçün sorğu göndərməlidir. Həmin sorğuya 15 gün müddətində rəy bildirilməlidir.

Qanuna görə, barəsində icazə tələb olunan tikinti şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə zidd olmadığı təqdirdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən tikintiyə icazə verilməlidir.

Şəhərsalma və Tikinti Məcəlləsində icazə verən orqan "müvafiq icra hakimiyyəti" adı altında ümumiləşdirilsə də, aydındır ki, bu cür iri bir tikintinin icazəsi üçün BŞİH başçısının imzası mütləqdir. Məsələn, bir neçə ay əvvəl elə "Ovçular evi"nin bir addımlığında yerləşən Bakı Dövlət Universitetinin tələbələri üçün yataqxana tikintisinə də icazəni H.Abutalıbov imzalamışdı. Qanunda verdiyimiz qısa sitatlar və prezidentin tikintinin dayandırılması barədə qərarı da onu təsdiqləyir ki, müvafiq icra orqanları qanunun tələblərini heçə sayıb. Burada digər tikintiyə məsul qurumların da məsuliyyəti var ki, şübhəsiz, onların da "başı ağrıyacaq".

Virtualaz.org tikinti aparan şirkətin Adəm İsmayılov adlı deputata məxsus olduğunu yazsa da, hazırda Milli Məclisin tərkibində belə bir şəxs yoxdur. Bizim araşdırmaya görə, A.İsmayılov deputat yox, 2015-ci ildə deputatlığa namizəd olub.

Ölkə mətbuatında hələ Bakıda "tikinti bumu" vaxtı belə xəbərlər vardı ki, 10-16 mərtəbəli bina üçün ən azı 500 min manat rüşvət vermək tələb olunur. Bakıda böyük binaların tikintisi məhdudlaşdırıldığından indi bu "şirinlik" yeqin ki, iki dəfə artıb. Bina deputatlar üçün nəzərdə tutulduğundan ola bilsin ki, müvafiq icazə üçün rüşvət tələb olunmayıb. Amma nəzərə alsaq ki, burada təkcə yaşayış binası deyil, həm də ticarət obyektlərinin tikilməsi də planlaşdırılıb, o halda şübhələr üçün əsas yaranır.

İddialar var ki, tikinti üçün icazə verilməsinin məsuliyyətini 2006-cı ilin sentyabrından hal-hazıra kimi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışan İbrahim Mehdiyevin üzərinə qoymaq istəyirlər. Çünki şirkət cərimələnsə də, ortada cinayət işi, prezidentin iradəsi var.

Son aylar Yasamaldakı söküntü işləri ilə bağlı İbrahim Mehdiyev tez-tez hədəfə çıxır. Mikayıl Müşfiqin heykəlinin sökülməsindən sonra yaranmış qalmaqalı xatırlamaq kifayətdir. İ.Mehdiyev "Sovetski" dəki "Hacı Cavad" məscidin sökülməsi ilə bağlı da narazılığın əsas fiquru idi. İndi isə ortaya daha bir ciddi qanunsuzluq çıxıb...

H.Abutalibovun Bakının icra başçısı vəzifəsindən tezliklə çıxarılacağı barədə çox yazılsa da, o, paytaxtda hələ ki söz sahibi olaraq qalır. Amma ondan da İ.Mehdiyev kimi narazılıq kifayət qədərdir...

Prezident cidd-cəhdlə ölkə iqtisadiyyatında dönüş yaratmaq üçün çalışdığı bir vaxtda bəzi məmurların "qaşınmayan yerdən qan çıxarması" və əhalidə narazılıq yaratması ümumi siyasətə tam ziddir. Təsadüfi deyil ki, son bir həftədə prezident İlham Əliyev iki dəfə-həm "Hacı Cavad", həm də "Ovçular evi" ilə bağlı yaranmış məsələyə şəxsən müdaxilə etməli olub, hər iki halda əhalini narazı salan söküntü işlərini dayandırmaq barədə göstəriş verib.

❑ **"YM"**

YENİ MÜSAVAT
N 81 (6695) 19 aprel 2017

# Ölkəni varlandıracaq 5 məhsul- ekspertlər danışır

## Babək Tatlıyev: "Bu məhsulların istehsalını və ixracını ən azı iki dəfə artırmaq olar"

**Prezident İlham Əliyev ölkəyə ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarının adlarını açıqlayıb. Aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində çıxış edən dövlət başçısı bildirib ki, kənd təsərrüfatı məhsulları üzrə ölkəyə ən çox valyuta gətirən fındıq və pomidordur.**

O qeyd edib ki, bu məhsullar arasında fındıq birinci, pomidor ikinci yerdədir: "Fındıq məhsulunun ixracından ölkəmizə 105 milyon, pomidordan isə 94 milyon dollar valyuta daxil olub. Üçüncü yerdə xurmadır - 68 milyon dollar, dördüncü yerdə şəkərdir - 62 milyon dollar. Amma burada biz bilməliyik ki, bu şəkərin böyük hissəsi qamış şəkərindən, xammalından istehsal olunub. Yəni, şəkərin istehsalı üçün xaricdən xammal gətirilib. İndi biz çuğundura keçəndən sonra 62 milyonun hamısı ölkəmizdə qalacaq, yəni idxala pul ayrılmayacaq. Hesab edirəm ki, biz şəkərin istehsalını rahatlıqla iki dəfə artıra bilərik, ya İmişli rayonunda yerləşən zavodda, ya da geniş vüsət alarsa, yeni zavod tikilə bilər. Beşinci yerdə pambıqdır. Pambıq keçən il bizə 24 milyon dollar valyuta gətirib. Amma bu, birinci ildir. Əminəm ki, bu rəqəm bu il bundan iki dəfə çox olacaq".

**Ölkə başçısı bu məhsulların ixracından ötən il 350 milyon dollar gəlir gəldiyini açıqlayıb:** "Qeyd etdiyim bu beş pozisiya üzrə ölkəmizə keçən il 350 milyon dollar valyuta gəlib. Biz ancaq bunları iki dəfə artırmaqla, görün, rahatlıqla nə qədər böyük valyuta əldə edəcəyik".

**Bəs görəsən, bu məhsulların istehsalını artırmaq üçün Azərbaycanın yetərincə potensialı varmı? İstehsal artarsa, dünya bazarında Azərbaycan məhsullarını ixrac edəcək hansı bazarlar var?**

**Kənd təsərrüfatı üzrə mütəxəssis, iqtisad elmləri doktoru Müslüm İbrahimov "Yeni Müsavat"a bildirdi ki, bu beş məhsul valyuta tutumlu məhsullardır və dünya bazarında da bu məhsullara tələbat böyükdür:** "Xüsusən pambığa tələbat çox böyükdür. Dünyada pambıq bazarı neft bazarı kimi təkmilləşib. Orada da mütəmadi olaraq qiymətlər dəyişir. Digər bir məhsul, məsələn, fındıqla bağlı Azərbaycan ixtisaslaşıb. Rusiya və Türkiyə bazarına fındıq ixrac olunur. Türkiyənin özünün də fındıq ixracı ilə məşğul olmasına baxmayaraq, bu bazarda da Azərbaycan məhsuluna tələbat var. Bu il 105 milyon dollarlıq fındıq ixracı olub və bu da böyük gəlirdir. Fındıq özü həm də yeyinti sənayesində xammal kimi istifadə olunur. Bir önəmli məqamı da vurğulamaq istərdim ki, Azərbaycan aqrar sektoru tam texnologiya ilə əhatə olunmadığından daha çox əmək tutumludur. Bu isə o deməkdir ki, həmin məhsullar daha təbii, ekoloji təmiz və daha keyfiyyətlidir, həmçinin maya dəyərinə görə daha bahadır. Dünya bazarında ekoloji təmizliyə görə standartlar var və Azərbaycan məhsulları bu standartlara uyğundur".

**Aqrar sahə üzrə ekspert Babək Tatlıyev də qeyd etdi ki, Azərbaycanın kənd təsərrüfatının böyük ixrac potensialı var:** "Bu potensial sovet dövründə daha böyük olub. Mən sevinirəm ki, Azərbaycanın ixracdan gələn vəsaitlərində artım var. Təbii ki, bu bizim ixrac potensialımızın heç 25 faizi deyil. Azərbaycanda həm əkin və istehsal, həm də satış potensialı var. Cənab prezidentin orada dediyini mən qəbul edirəm ki, bu məhsulların istehsalını və ixracını ən azı iki dəfə artırmaq olar. Bütün potensialımızı istifadə etsək, hətta 10 dəfə də artırmaq olar".



**Ekspertin sözlərinə görə, bizim məhsulların özəlliyi onların keyfiyyətindədir:** "Bizim məhsullar Türkiyə, İran və Çin məhsullarında daha keyfiyyətli və dadlıdır və dünya bazarında belə bir imici var. Elə Rusiya bazarında Azərbaycan pomidorları digər hamısından fərqlənir və adla tanınır. Bizim məhsullar ekoloji cəhətdən təmiz və orqanik sayılır. Bizdə məhsulları yüksək keyfiyyətlə yetişdirmək mümkündür. Çünki onlara uyğun iqlim qurşağı var. Ancaq bunun üçün çox işlər görülməlidir. Azərbaycanda suvarma sistemləri bərpa olunmalıdır".

**B.Tatlıyevin sözlərinə görə, bu məsələdə qonşu ölkələrin müsbət təcrübəsindən yararlanmaqda fayda var:** "İlk növbədə fermerləri maraqlandırmaq lazımdır. Biz bunun üçün xarici ölkələrin təcrübəsindən yararlanmalıyıq. Bunun üçün yenə və daha innovativ texnologiyalardan istifadə etməliyik. Bu sahədə ən öncül ölkələrdən biri olan İsrailin təcrübəsindən faydalana bilərik.".

**Ekspert Azərbaycan məhsullarının ixracı üçün yeni bazarların araşdırılmasının vacibliyini də vurğuladı:** "Digər bir vacib məsələ bazardır. Azərbaycan məhsullarını ixrac etmək üçün yetərincə bazarlar var. Ancaq bu məsələdə dünya bazarlarında vəziyyət bir qədər mürəkkəbdir. Burada Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsi və digər məsələlər var. Həmin bazarları axtarmaq lazımdır. Bunu fermerlər edə bilməsələr də, bunun üçün müvafiq qurumlarımız var. Dünya bazarlarında bizim ixrac potensialımız indidən öyrənilməlidir. Çünki fermer nə qədər istəsə məhsul istehsal edə bilər, ancaq onu vaxtında sata bilməsə, həmin məhsul xarab olmaqdan başqa heç bir işə yaramayacaq. Ona görə də satış potensialımız öyrənilməlidir. Onu da nəzərə almaq lazımdır ki, bizə çox yaxın olan ölkələrin, Türkiyənin, İranın çox böyük ixrac potensialı var. Biz məhsul ixrac etdiyimiz ölkələri maraqlandırmalıyıq ki, məhz onların yox, bizim məhsullarımızı alsınlar. Bu da çətin bir proses deyil. Çünki dünyada vəziyyət sürətlə dəyişir. Dünənə kimi Türkiyə Rusiyaya kənd təsərrüfatı məhsulları ixrac edirdi. Ancaq bir günün içində, məlum təyyarə olaylarından sonra ətraf ölkələrin ixrac potensialı birdən-birə artdı. Bu cür hadisələr də baş verir. İxrac məsələsi çox böyük bir sahədir və bunun üzərində işləmək lazımdır. Bizim fermerlərimiz bilsələr ki, Azərbaycanın böyük ixrac potensialı var, onlar da istehsalı artırarlar. Təkcə daxili tələbata yönəlməklə nə isə əldə etmək çox çətindir. Çünki bu elə də böyük məbləğ deyil, Azərbaycanın ərazisi və əhalisi o qədər də çox deyil".

❑ Nərgiz LİFTİYEVA

# Bankların "qara siyahı"ları əhalinin həyatını qaraldır

## İqtisadçı ekspertlər problemdən çıxış yolunu göstərdilər

**"Mənim bank hesabımda 50 min avro oturub, mənə 20 min manat verin ki, elektrik enerjisinin pulunu köçürüm. Mənə o vəsaiti vermirlər. Deyirlər ki, adım hansısa bankın "qara siyahısı"ndadır. Halbuki mən həmin bankla məhkəmə çəkişməsini udmuşam, əlimdə qətnamə də var".**




Bu sözləri "Tovuz-Baltiya" MMC-nin baş direktoru Naib Məmmədhəsənov "Qeyri-neft ixracatçılarının respublika müşavirəsi"ndə çıxışı zamanı səsləndirib. Onun bu çıxışı banklarda adı "qara siyahı"ya düşən vətəndaşların problemlərini bir daha gündəmə gətirib. Belə siyahılarda isə iş adamları ilə yanaşı, sadə vətəndaşlar da var.

Məsələyə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da problemin tezliklə həll edilməsinin vacibliyini vurğuladı: "Bununla bağlı mən də tez-tez məktublar alıram. Problemin həlli üçün bankların sağlamlaşdırılması prosesi yüksək templə getməlidir. Çox təəssüf olsun ki, biz qanunlara dəyişikliklər etsək də, müəyyən qərarlar qəbul etsək də, bank sistemində durğunluq və problemlər davam edir. Dollarla olan kreditlərin vaxtında qaytarılmaması bu problemlərin başında durur. Maliyyə Bazarlarına Nəzarət Palatası bu işlə məşğul olmalı, daha ciddi şəkildə bu prosesə təkan verməlidir ki, bank sistemi işləməyə başlasın. Bizim iqtisadiyyatımızın əsas amillərindən biri bank sisteminin normal işləməsidir. Bank sistemi ilə bağlı əhali arasında da ciddi narazılıq var. Şikayətlər həddindən artıq çoxdur. Ancaq hələlik problem davam edir. Biz dollarla olan kreditlərin qaytarılması ilə əlaqədar müəyyən təkliflər irəli sürmüşük".

**İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov da "Yeni Müsavat"a danışarkən vurğuladı ki, ümumən ölkədən çıxışa qadağa kimi məhdudiyyətlər yalnız məhkəmə qərarı əsasında ola bilər:** "Yeni bankın "qara siyahıları"nın heç bir hüquqi əhəmiyyəti yoxdur. Lakin bir-iki bank var ki, Daxili İşlər Nazirliyi vasitəsilə vətəndaşların ölkədən çıxışına "stop" qoydururlar. İlk növbədə bu, Beynəlxalq Bankdır. Cahangir Hacıyevin məlum əməllərinə görə DİN həmin banka borcu olanların bir çoxunun ölkədən çıxışına qadağa qoymuşdu - qanunsuz olsa da. Çünki əslində DİN təqdimatı ilə qadağanı məhkəmə qoymalı idi. Digər bank NBC idi. DİN-də kiminləsə sövdələşməyə girib buna nail olmuşdu. Amma mən nazirə şikayət edəndən sonda bildiyim qədər buna son qoyuldu. Yenə belə hallar varsa, şikayət etmək, məhkəməyə müraciət etmək lazımdır".

**Ekspertin sözlərinə görə, adının "qara siyahı"da olması vətəndaşa yalnız hansısa bankdan kredit götürərkən maneə yarada bilər:** "Hər hansı şəxsə dair məhdudiyyəti yalnız məhkəmə müəyyən edə bilər. Yalnız kreditin alınmasında "qara siyahı"nın əhəmiyyəti var. Məlum olduğu kimi, bankların və bank olmayan kredit təşkilatlarının kreditləri haqda məlumatlar Mərkəzləşdirilmiş Kredit Reyestrində toplanır. Kredit vermək istəyən kredit təşkilatı borc alana dair məlumatı orada yoxlayır. Təbii, kiminsə adına problemi, yəni vaxtında ödənilməyən borc gördükdə, bir qayda olaraq kredit verməkdən imtina edir. Təbii, banklar bəzən bundan sui-istifadə edir. Məsələn, krediti ödəmişəm, amma bank artıq hesabladığı faizi də boynuma yükləyib və 1-2 manata görə reyestrdə problemli borclu kimi görünürəm. Buna görə də başqa yerdən kredit ala bilmirəm. Bu halda həmin bankı məhkəməyə vermək olar, o cümlədən vurulan zərərin də əvəzini tələb etmək olar".

Qeyd edək ki, adları bankların qara siyahısına, yəni Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) düşən şəxslər növbəti dəfə heç bir bankdan kredit götürə bilmirlər. Ancaq məlum olduğu kimi, indi banklar faktiki olaraq heç kimə kredit vermir. Lakin bu durum ən çox iş adamlarına çətinliklər yaradır. Məlumat üçün bildirək ki, Mərkəzləşdirilmiş Kredit Reyestri 2005-ci ildə Mərkəzi Bank tərəfindən yaradılıb. İndi həmin Reyestr Maliyyə Bazarlarına Nəzarət Palatasının ixtiyarındadır. "Qara siyahı"da qalma müddəti 3 ildir. Yəni 3 ildən sonra sizin kredit tarixçəniz artıq yenilənir. Bu, o deməkdir ki, əgər mənfi kredit tarixçəniz varsa, yaxın 3 il ərzində digər bir bankdan kredit götürə bilməyəcəksiniz.

❑ Nərgiz LİFTİYEVA

# Putindən işğalçıya ilginc reverans - Bakını üzəcək mövqe

**Kremlin Dağlıq Qarabağla bağlı apardığı siyasətin heç də Azərbaycanın həyati maraqlarından yoğrulmadığı təzə məsələ deyil. Ötən ilin sonunda Rusiya xarici işlər naziri Sergey Lavrov "Qarabağda müharibə Azərbaycanın daxili işi deyil" söyləməklə Moskvanın ermənilərə rəğbətini bir daha nümayiş etdirmiş oldu.**

Faktiki surətdə həm də Bakıya ünvanlı hədə xarakteri daşıyan həmin bəyanat eyni zamanda Ermənistana "qorxma, arxandayam" mesajı idi, rəsmi Moskvanın Azərbaycana münasibətdə ikiüzlü siyasətinin növbəti təzahürü idi. Çünki Rusiya yetkililəri dəfələrə bəyan ediblər ki, Azərbaycanın işğal altındakı torpaqlarında yaradılmış separatçı rejimi tanımırlar.

O da məlumdur ki, Moskva Azərbaycanı özünə strateji tərəfdaş ölkə və Qarabağ nizamlanmasının moderatoru hesab edir. Bakı isə öz növbəsində buna hələ də inam ifadə edərək, Kremlin, nəhayət, konfliktin ədalətli həlli üçün hərəkətə keçəcəyinə ümid edir. Amma əbəs yerə. Musavat.com vesti.az-a istinadən xəbər verir ki, dünən bu ümidlərin üstündən yağlı bir xaç çəkilib. Faktı təqdim edirik.

***

Lavrov, Peskov və Jirinovski Qarabağ separatçılarının lideri Saakyanla bir araya gəldilər; Rusiya rəsmi şəxsləri və "Kremlin danışan dili" Moskvada erməninin yubiley banketinin iştirakçıları oldu; **Jirinovski:** "Arzum budur ki, növbəti yubileyədək "Artsax" bütün ölkələr tərəfindən tanınsın, ermənilər Araratı geri qaytarsınlar..."







Məlumatlara görə, srağagün Moskva milyonçularının sevimli məkanlarından biri olan "Safis" restoranında Rusiya Erməniləri İttifaqının prezidenti Ara Abramyanın 60 illiyi qeyd olunub. Tədbirin qonaqları arasında isə Rusiyanın xarici işlər naziri Sergey Lavrov və prezident Vladimir Putinin mətbuat katibi Dmitri Peskov da olub. Yubileyə həmçinin LDPR lideri, "Kremlin danışan dilləri"ndən sayılan Vladimir Jirinovski də qatılıb. Prezident Vladimir Putinin özü isə yubilyara təbrik məktubu göndərib.

**Artıq günün sonuna yaxın sosial şəbəkələrdə yubileylə bağlı çoxsaylı şərhlər peyda olub. Onlardan biri Peskovun və Vladimir Jirinovskinin təbriklərinin mahiyyətini açır. Diqqət:** "Peskov Ara Abramyana nəhayət ki, rus dilini öyrənməyi arzu edib. Jirinovski isə belə bir arzu ifadə edib ki, növbəti yubileyədək Artsax bütün ölkələr tərəfindən tanınsın və ermənilər Araratı (Türkiyə torpaqları - red.) geri qaytarsınlar" (orfoqrafiya və deyiliş forması olduğu kimi saxlanılıb).

Yubiley tədbirində Ermənistan prezidenti Serj Sərkisyan və Qarabağ separatçılarının lideri Bako Saakyan da iştirak edib. Necə deyərlər, şərhsiz...

***

Əslində ortada təəccüblənməli bir şey yoxdur - üstəlik, nəzərə alsaq ki, Lavrovun *(Kələntərovun)* özü erməni kökənlidir. 200 ildir ermənilər beləcə, rusların əlində bölgədə maşa rolunda çıxış etməkdə, qarşılığında isə Azərbaycan və Türkiyə əleyhinə Rusiyadan müəyyən xırda-para imtiyazlar qoparmaqdadırlar. Yəni "Əl əli yuyar, əl də üzü" məsələsi.

Jirinovskiyə gəlincə, bu gizli-açıq türk düşməninin, erməni təəssübkeşinin son açıqlaması da təəccüblü görünmür. Onun Türkiyə və Azərbaycan əleyhinə vaxtaşırı verdiyi bəyanatlar, səsləndirdiyi hədyanlar unudula bilərmi? Hərçənd o, Ankara-Moskva barışı və Türkiyə səfərindən sonra bir müddət idi ki, yumşaq ritorika sərgiləyirdi.

Təəccüblüsü bu deyil təbii ki. Təəccüblüsü - Azərbaycanı strateji tərəfdaş adlandırmaqdan yorulmayan Moskvanın öz yüksək çinli rəsmilərini aşağı səviyyəli erməni tədbirinə yollamaqla İrəvana növbəti loyallıq nümunəsi göstərməsi, Azərbaycanı isə yenə incitməsidir. Belə bir dövlətdən indi Dağlıq Qarabağla bağlı ədalətli və qərəzsiz vasitəçilik ummağa dəyərmi?

***

**Bu arada "Ermənistan Baş Qərargahının keçmiş rəisi Yuri Xaçaturovun "Putin NATO-su"na - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) baş katib gətirilməsi də rəsmi Moskvanın işğalçı tərəfə növbəti, mühüm reveransı kimi qiymətləndirilir.**

"Bu, o deməkdir ki, Moskva ermənilərin mövqelərini gücləndirir. Əslində bu, rusların ermənilərə növbəti hədiyyəsidir. Təyinatı rotasiya qaydası ilə əsaslandırsalar da, öncəki iclaslarda Belarus və Qazaxıstan bu işə mane oldu. Üstəlik, baş katib vəzifəsi üçün keçmiş müdafiə naziri Ohanyan nəzərdə tutulurdu. O, Serj Sərkisyanla münasibətləri birdəfəlik kəsdikdən sonra Yuri Xaçaturova yol açıldı. Bir sözlə, Kreml Ermənistan üçün daha yaxşı şərait yaratmağa çalışır". Musavat.com-un məlumatına görə, bu sözləri axar.az -a açıqlamasında sabiq dövlət müşaviri, **politoloq Qabil Hüseynli** deyib.

"Doğrudur, "Putin NATO-su"nda hər şey Kremlin iradəsindən asılıdır, ancaq Rusiya və Ermənistan ordularının birləşdirilməsi və komandanlığın Moskvaya verilməsini nəzərə alsaq, bu məsələnin o qədər də xoş olmayan hal olduğunu söyləmək mümkündür. Bununla belə, erməni generalın baş katib seçilməsindən sonra İrəvanın güclənən müharibə ritorikasına baxmayaraq, Azərbaycan Ermənistana istənilən vəziyyətdə layiqli cavab verməyə hazırdır", - deyə politoloq qeyd edib.

***

Kremlin işğalçı tərəfə, Qarabağ separatçılarına bu qəbildən olan yeni reveranslarından, Bakını üzəcək addımlarından bir daha qənaət hasil olur ki, Rusiya gerçəkdə nəinki Azərbaycanın strateji tərəfdaşı deyil, ümumiyyətlə, tərəfdaşı deyil, sayılmaz.

❑ **Sİyasət şöbəsİ**

# Ermənistanın "İsgəndər" təhdidinin sorağı ABŞ-a çatdı - mətbuatdan SOS!

Azərbaycan və Ermənistan parlamentarilərinin görüşünə dair təşəbbüs olsa da, İrəvan təmasdan yayınır; ordumuz döyüşə hazırlıq təlimlərinə başlayıb, bəs xalq necə?

**Son vaxtlar ayrı-ayrı erməni hərbi ekspertləri, həmçinin siyasilər Ermənistanın əldə etdiyi "İsgəndər" və "Verba" raket komplekslərinin Azərbaycana zərbə vurmaq şansı yaratdığını iddia edirlər. Lakin bunun əksini düşünənlər və bu raketlərin düyməsinin Moskvanın barmağının altında olduğunu xatırladanlar da var. Ancaq hələ ki işğalçı ölkə danışıqların bərpasından yan qaçmağa çalışır.**

Bu arada növbəti təşəbbüslər də göstərilir. ATƏT Parlament Assambleyasının sədr müavini, Milli Məclisin deputatı Azay Quliyev bildirib ki, ATƏT-in Minsk Qrupu ölkələrinin ATƏT PA-da təmsil olunan parlamentarilərinin görüşü keçirilə bilər. O deyib ki, Azərbaycan və Ermənistan parlamentarilərinin də görüşünə dair ümumi təşəbbüslər var, amma hələlik konkret qərar yoxdur.

Göründüyü kimi, erməni tərəf bütün müqavimətini işə salıb təmaslardan yayınır. Odur ki, savaş təhlükəsi yenidən gündəmə gəlib. Ordumuzun genişmiqyaslı təlimləri də növbəti döyüşlərə hazırlıq kimi dəyərləndirilir.

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov dedi ki, ölkə rəhbərliyi bu istiqamətdə lazım olan göstərişlərini verib:** "Yerlərdə çox güclü hərbi-vətənpərvərlik işləri həyata keçirilir. Təkcə 2016-cı ilin məlum aprel hadisələrinə həsr olunmuş anım mərasimlərinin miqyasına baxsanız, milyonlarla vətəndaşımız bu tədbirlərdə öz ordusu və komandanlığı ilə bir olduğunu sübut etdi. Ona görə də hesab edirəm ki, həm televiziya kanallarımız, həm dövlət, hökumət, QHT sektoru bu istiqamətdə işlərini daha da genişləndirməlidir. Tez-tez ön xətdə olan əsgər və zabitlərimizlə görüşlər keçirilməli, həm birinci Qarabağ savaşının, həm də son dövrlərdə yüksək qəhrəmanlıq və əsgəri rəşadət göstərmiş şəxslərin fəaliyyəti geniş təbliğ olunmalıdır".




**Hərbi ekspert Silahı Qüvvələrimizin genişmiqyaslı təlimlərini də olduqca zəruri saydı:** "Şəxsi heyət qarşıya qoyulmuş tapşırıqları yerinə yetirməklə həm döyüş hazırlıqlarını yüksəldir, həm də müəyyən bilik və yeni vərdişlərə yiyələnir. Əlbəttə ki, bu gün təlim kimi yerinə yetirilən bütün tapşırıqlar real döyüş vaxtı düşmən üzərində üstünlük əldə etmək üçün ən gözəl məşq sayıla bilər. Düşmən tərəf çox narahatdır və onların narahatçılığı da özünü açıq şəkildə büruzə verir. Təlimləri öz ərazimizdə və əvvəlcədən təsdiq edilən plan üzrə keçirən Azərbaycana Ermənistanın hərbi komandanlığı absurd bir şəkildə münasibət açıqlayıb. Bunu ancaq erməni ağlı edə bilərdi və necə ki, etdilər. Bunlar ATƏT-ə, nə bilim daha harasa şikayət ünvanlayıblar ki, Azərbaycan tərəfi, sən demə, belə genişmiqyaslı təlimlər haqqında əvvəlcədən kimlərisə xəbərdar etməliymiş. Bu binəvalar nədənsə anlamaq istəmirlər, ya özlərini dəli yerinə qoyublar ki, guya biz gizlincə, hansısa məxfi işlər görürük, kimlərinsə xəbər tutmamasına çalışırıq. Həm Azərbaycanda akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin üzvləri onsuz da məlumatlıdırlar və onları maraqlandıran bütün suallara Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq idarəsi vasitəsilə lazım olan bütün zəruri məlumatlar da çatdırılır, həm də onları maraqlandıran suallar cavablandırılır. Bəlkə biz bədnam qonşularımızdan icazə almalıyıq? Beynəlxalq hüquq və normalara, qanunlara hörmətsizlik edən tərəf Ermənistan və onun işğalçı qüvvələridir. Məhz onlar Azərbaycanın işğal altında olan Ağdam rayonunun Uzundərə adlanan ərazisində hərbi təlimlər keçirir, bizim ərazilərimizi dağıdır və ziyan vurur. Hər dəfə əzəli torpaqlarımızda hansısa qondarma tədbirmi deyim, toplantımı söyləyim, keçirəndə bizim onsuz da gərilmiş vəziyyətdə olan əsəblərimiz bir az da tarıma çəkilir. Bu axmaqların həm siyasətçiləri, həm də Ter-Tadevosyan ağlında olan generalları da hər addımbaşı bizə hədə-qorxu gəlirlər. Bunları başa salan tapılmır ki, bütün parametrlər üzrə Azərbaycan sizi üstələyir. Həm insani resurs, həm silah və sursat baxımından siz qat-qat zəif durumdasınız. Nə tutmusunuz bu "İsgəndər" raketlərindən, indi də əlinizə daha bir "Verba" oyuncağı veriblər, başlamısınız sərsəm-sərsəm hədyanlar səsləndirməyə".

**Bu arada, nəhayət, Ermənistanın "İsgəndər" təhdidinə ABŞ-dan reaksiya verilib. "Ermənistanın əldə etdiyi "İsgəndər" raket komplekslərinə mümkün nüvə başlığı quraşdırması regionda nüvə müharibəsi təhdidi yaradır. "Report" xəbər verir ki, bu barədə ABŞ-da işıq üzü görən "Washington Times" nəşrində dərc olunmuş məqalədə deyilir.** "Qara dəniz və Xəzər dənizi arasında uzanan Qafqaz dağları Ermənistan prezidenti Serj Sərkisyanın təhlükəli oyunları səbəbindən tezliklə nüvə partlayışlarının olacağı məkana çevrilə bilər. Ermənistan qanunsuz şəkildə Azərbaycanın qərb hissəsində torpaqları işğal edib, azərbaycanlılara qarşı hərbi təcavüz olub, o cümlədən 1992-ci ildə bu ölkənin 600 vətəndaşını kütləvi şəkildə qətlə yetirib. Təəssüf ki, Ermənistan regionu nüvə müharibəsi həddinə çatdırır", - məqalədə yazılıb.

**Müəllif qeyd edir ki, Ermənistan ötən ilin payızında Rusiyadan "İsgəndər" raket sistemləri alıb.** "Bu, Azərbaycana və NATO-nun müttəfiqi Türkiyəyə mesaj mənası verən böyük təxribat idi. Bu, Moskvanın Avrasiyada və Yaxın Şərqdə raket kompleksləri yerləşdirməklə və Qərb maraqlarına təhdid xarakteri daşımaqla bağlı siyasi xəttinə əsaslanır", - nəşr vurğulayır.

**Bunun ardınca ABŞ konkret hərəkətə keçəcəkmi? Gözləyək.**

❑ **E.PAŞASOY**



# Özünüzü məşğul edə bilirsinizmi?

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında dövlət başçısının rəhbərliyi ilə Nazirlər Kabinetinin iclasında qarşıda duran vəzifələr sırasında özünüməşğulluq proqramına xüsusi diqqət göstərilməsinin vacibliyi qeyd olundu, Artur müəllimin idarəsinə, necə deyərlər, müvafiq tapşırıqlar verildi. (Bizdə tapşırıq müvafiq olmasa heç kəs əməl eləmir. Dövlətçiliyimizin prinsiplərindən biri budur).**

Təzə termindir. Qabaqlar zəhmətkeşlərin məşğulluğunu təmin etmək dövlətin vəzifəsi idi, yenə müvafiq olaraq hər il yüz minlərlə iş yeri açılırdı. İndi isə xalq özü özünü məşğul etməlidir. Yoxsa mən bu "özünüməşğulluq" nə deməkdir, anlamıram.

Hərçənd biz özünüməşğulluqla məşğul olsaq, o zaman dövlətçilik işləri ilə kim məşğul olacaqdır? Xalqı özünüməşulluğa buraxsan, sabah özünə hətta bələdiyyə də seçər. Bir də gördün, adamın üzünə qayıtdılar. Bəs necə, axı biri var, sənin başını dövlət qatışdıra, biri də var, özün özünlə məşğul olasan. Siyasi ədəbiyyatda bu quruluş tipinə onanizm deyirlər. Qulağınızı çəkib, çiyniniz üstdən arxaya tüpürün, Allah göstərməsin bizə belə quruluşu...

Bu özünüməşğulluq söhbəti mənim yadıma Ayaz Mütəllibovun vaxtında "Çeşmə" satirik qəzetində çıxmış lətifəni saldı. Orda Ayaz müəllim çıxışında bəzi rayonlarda politologiya ilə məşğul olan ekstremist ünsürlərdən bəhs edirdi. Bundan sonra daxili işlər naziri polis rəislərinə tapşırıq verirdi ki, politologiya ilə məşğul olanlar üzə çıxarılsın. Yevlağın polis rəisi də rayondakı bir aşığı tutub idarəyə gətirir, ancaq termin yadından çıxır, təxminən deyir ki, "bolitgelya" ilə məşğul olduğunu öyrənmişik, boynuna al. Aşıq da yazıqcasına deyirdi: "Rəis, qadan alım, mən evli adamam, arvad-uşağıma nə gəlib ki, bolitgelya ilə məşğul olum?"

İndi özünüməşğulluqla, Kərbəlayı Zal demiş, "hökumət qulluğu" arasında balans yaratmaq çətin olacaqdır. Ümumiyyətlə, bizim iqtisadiyyatda balans çox çətin yaranır, ağlınız xarici siyasətə getməsin. Örnək üçün, keçən il pambıqçılıq üzrə dövlət proqramı elan edildi. Bundan dərhal sonra mal-qoyun ətinin qiyməti birinci kosmik sürətlə *(saniyədə təxminən 8 kilometrə bərabərdir, yəni sən "ət" deyincə kəsmək istədiyin qoyun "8-ci kilometr" bazarından çıxıb şəhərin mərkəzinə çatır)* qalxmağa başladı. Ekspertlər deyir ki, hökumət otlaq və biçənəkləri zorla pambıq sahəsinə çevirir, heyvanlara verməyə yem qalmır, azalma bu üzdəndir. Bazar qanunlarına görə nə azalsa, onun qiyməti qalxır.

Ancaq bu da bizdə hər şeydə keçərli deyildir. Misal üçün, qabaq müxalifət çox idi, hökumət müxalifətçiləri baha qiymətə alırdı. İndi müxalifətin nəsli kəsilib, iki cüt bir tək adam qalıblar, lakin hökumət bunları almaq üçün çox ucuz, bəzən maya dəyərindən də aşağı qiymət qoyur. Nəticədə müxalifəti xarici bazarlara, mühacirət birjasına çıxardıb satmaq daha sərfəli alınır, bu zaman dövlət büdcəmizə müəyyən qədər, sevimli terminizmlə yazsaq, müvafiq miqdarda valyuta daxil olur.

Ət demişkən *(oxucunun tam haqqı var ki, fikirləşsin: "Ətdi-mətdi, bu nə söhbətdi?")*, Kənd Təsərrüfatı Nazirliyinin baytarlıq idarəsi də açıqlama verib, deyir bizdə it və eşşək əti satılması xəbərləri yalandır. "Mənşəyi məlum olmayan tonlarla ət tutmuşuq, ancaq mənşəyi məlum deyilsə, bu hələ eşşək əti sayılmır" - sitatın sonu.

Doğru deyir. Mənşə əsas məsələdir. Misal üçün, Şimali Koreyada hakim təbəqə ilə rəiyyət arasında bölgü varmış. Hərə öz nəslini artırır, bu iərarxiyada ağanın nökərə, nökərin ağaya çevrilmək şansı sıfıra bərabərmiş. Bu kasta sistemini qorumaq üçün orda hərə öz təbəqəsindən evlənirmiş. Eynilə bizdəki kimi. Məmurlar öz aralarında quda olur, kasıb zəhmətkeşlər də öz aralarında.

Prinsipcə, bunun özü də bir özünüməşğulluq formasıdır.

---

**Aprelin 17-də prezident İlham Əliyevin sədrliyi ilə Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsi təkcə iqtisadi baxımdan deyil, ölkənin indiki və gələcək inkişafının əsas konturlarının açılması kimi dəyərləndirilməlidir.**



# Prezident İlham Əliyevin hədəfləri: biznes adamlarına "master-klass"...

Müşavirədəki geniş və əhatəli çıxış həm də bir həqiqəti təsdiq etdi ki, prezident İlham Əliyev təkcə bacarıqlı siyasət adamı deyil, o həm də Azərbaycan və dünya iqtisadiyyatının hazırkı durumunu dərindən bilən, təhlil edən dövlət başçısıdır...

Prezidentin çıxışı dövlət televiziyasında və mediada geniş işıqlandırıldığından təfərrüata varmağa zərurət qalmır. Amma bu müşavirənin bir neçə mühüm yekunu haqda qeydlər etmək lazım gəlir.

Əvvəla, iqtisadi sferadakı yerli iş adamları geniş tərkibdə prezidentin sədrlik etdiyi tədbirdə təkcə iştirakçı yox, həm də çıxışçı oldular, sonra isə nazirlərin iştirakı ilə birbaşa panel müzakirələrdə iştirak etdilər. Dövlət başçısı sahibkarlarla nazirlərin və müvafiq sahə rəhbərlərinin görüşünə şərait yaradaraq bürokratik əngəlləri də aradan qaldırmış oldu.

Sirr deyil ki, illərdir neft pullarının ölkəyə axması səbəbindən qeyri-neft sektorundakı yerli iş adamları arxa planda qalıblar. İndi isə prezident şəxsən onları ölkənin gələcəyini müəyyənləşdirən strategiyasının ön planına çıxarıb. Dövlət başçısı müşavirədə onlarla birbaşa təmas yaradaraq konkret hansı sahədə dövlətə para qazandırmaq və özlərinin də qazanmaq imkanlarının olduğunu açıqladı. Bu çıxış şişirtmədən demək olar ki, biznes adamlarına "master-klass" da sayıla bilərdi...

Müşavirədəki geniş və əhatəli çıxış həm də bir həqiqəti təsdiq etdi ki, prezident İlham Əliyev təkcə bacarıqlı siyasət adamı deyil, o həm də Azərbaycan və dünya iqtisadiyyatının hazırkı durumunu dərindən bilən, təhlil edən dövlət başçısıdır.

Sadə, ağır iqtisadi terminlərlə yüklənməyən, hamının başa düşəcəyi dildə danışmaqla, hansı sahələrdə ölkə iqtisadiyyatının gəlir əldə etdiyini fəxrlə deməklə, hansı istiqamətdə "axsadığı"nı etiraf etməklə cəmiyyətə də ciddi araxyınlıq mesajı vermiş oldu. Bu, həm də bəzi iqtidar tənqidçilərinin iddia etdiyi kimi, ölkənin iqtisadi enişə deyil, dirçəlməyə, inkişaf etməyə doğru inamla irəlilədiyini göstərməyi hədəfləyən çıxış kimi də qiymətləndirilə bilər. Bu çıxış "prezident ölkədəki vəziyyəti bilir" demək də deyil, hər şeyi daha yaxşı bilir, daha yaxşı olması üçün çalışır, proqramı və konkret hədəfləri var deməkdir...

Prezident çıxışında iş adamlarına təkcə hansı sahədə işləməyin sərfəli olduğunu açıqlamadı, dövlət başçısı həm də onları bizneslərini inkişaf etdirməyə, böyütməyə, ölkə hüdudlarından kənara çıxarmağa çağırış etdi. Yerli iş adamlarına MDB ölkələrindən başlayaraq, bəzilərinin yalnız xəritədə gördüyü Fars körfəzi ölkələri *(BƏƏ, Behreyn, Küveyt, Oman, Qətər, Səudiyyə Ərəbistanı, İran və İraq)* ilə böyük bir arealda iş qurmağı təklif etdi.

**Sitata diqqət edək:** "Azərbaycan bir çox ölkələrdə ticarət evləri yaradacaq. Birinci ticarət evi yaxın həftələrdə Belarusda yaradılacaqdır. Digər postsovet ölkələrində - Rusiyada, Ukraynada, Qazaxıstanda belə evlərin yaradılması gündəlikdədir. Bu, həm ölkəmizi təbliğ edəcək, həm də ixracatçılar üçün yeni imkanlar yaradacaqdır. Bununla bərabər, Asiya qitəsinin böyük ölkələrində mütləq ticarət evlərimiz olmalıdır. İndi Körfəz ölkələrində bizim məhsullarımıza böyük maraq göstərilir. Çünki son vaxtlar biz Körfəz ölkələri ilə, o cümlədən bu istiqamətdə çox işgüzar əməkdaşlıq qura bilmişik və oraya Azərbaycan məhsullarının çıxarılmasına nail olmuşuq. Bizim xüsusilə kənd təsərrüfatı məhsullarımıza o ölkələrdə böyük maraq var və Körfəz ölkələrinin istehlak bazarı kifayət qədər böyükdür. Onlar bizdə istehsal edilən və ixrac olunan malların bir çoxunu xaricdən, başqa ölkələrdən gətirirlər, idxal edirlər. Ona görə biz bu bazarlara fəal girməliyik. Bunun üçün də Körfəz ölkələrində mütləq ticarət evləri yaradılmalıdır".

**Prezident iş adamlarına istehsal etdikləri və hansı ölkələrə ixrac etdikləri məhsullarına reklam dəstəyi də vəd etdi:** "Bizdə hələ ki reklamla bağlı böyük anlayış yoxdur. Biz bunu etiraf etməliyik. Odur ki, dövlət öz hesabına bizim əsas ixracyönümlü malların təbliği üçün xarici kütləvi informasiya vasitələrində, televiziyalarda, qəzetlərdə reklam kampaniyaları təşkil etməlidir. Əlbəttə ki, birinci mərhələdə buna qonşu ölkələrdə, MDB məkanında başlamalıyıq. Bu, bizim sahibkarlara növbəti çox gözəl dəstəyimiz olacaqdır".

**Prezidentin çıxışından dövlətin və şəxsən özünün sahibkarlara dəstəyindən danışdı ki, bunlarla razılaşmamaq mümkün deyil.** "Dövlət infrastruktur yaradıb, kreditlər, subsidiyalar verir, fermerləri vergilərdən azad edib, aqrolizinq yaradıb, texnika alıb gətirir və paylayır. Gübrəni 70 faiz güzəştlə paylayır, yanacaq da həmçinin. Ticarət evləri yaradır, ixrac missiyaları, sərgilər təşkil edir. "Azexport" portalı, "Made in Azerbaijan" brendi, investisiya və ixrac təşviqi yaradıb. undan sonra sahibkarlara ancaq bunlardan istifadə etmək və öz imkanlarını genişləndirmək, ölkəmizə daha böyük fayda gətirmək qalır" deyə, prezident bildirib.

**Prezidentin çıxışında xüsusi qeyd edilləsi daha bir məqam isə xaricdə yaşayan azərbaycanlı iş adamları ilə bağlıdır. Məlumdur ki, xeyli sayda azərbaycanlı və ya Azərbaycan doğumlu iş adamları xaricdə uğurlu biznes fəaliyyəti ilə məşğuldurlar. Hətta onlar bir neçə milyardlıq ticari dövriyyədə böyük oyunçular kimi tanınırlar. Dövlət başçısı onlara müraciət edərək Azərbaycana dəstək olmağa çağırdı. Bu dəstək isə qətiyyən maddi yardım demək deyil. Sitat:** "Bilirsiniz ki, biz xaricdə yaşayan azərbaycanlıların problemlərinin həlli üçün böyük işlər görürük. Azərbaycan nadir ölkələrdəndir ki, artıq bizdə ənənəvi olaraq xaricdə yaşayan azərbaycanlıların qurultayı keçirilir. Biz onlara həm siyasi dəstək göstəririk, eyni zamanda onlar üçün biznes imkanları yaradırıq. Onlar da bu işlərdə fəal iştirak etməlidirlər. Bildiyimə görə, onlar bizim yeni təşəbbüslərimizə fəal qoşulurlar. Xaricdə yaşayan azərbaycanlılar, xüsusilə MDB məkanında yaşayan soydaşlarımız, o cümlədən bizneslə məşğuldurlar, onların böyük imkanları var. Onlar da öz biznes imkanlarını genişləndirmək, eyni zamanda öz Vətəninə kömək etmək üçün orada fəal işləməlidirlər. Mən onları da bu işlərə dəvət edirəm, onların da böyük ticarət şəbəkələri var. Onlar dünyanın müxtəlif yerlərindən məhsul idxal edirlər. Xüsusilə nəzərə alsaq ki, indi bizim imkanlarımız genişlənir, daha çox Azərbaycandan idxal etsinlər".

❑ **"Yeni Müsavat"**



# İsrail bu dəfə də erməni diasporunu peşman edəcək-saxta “soyqırım”la bağlı...

**Ötən ilin aprel döyüşlərində İsrail istehsalı olan müasir silahlardan sarsıdıcı zərbələr alan işğalçı Ermənistan Təl-Əvivlə Bakının münasibətlərini korlamaq üçün müxtəlif təxribatlara əl atır.**

İsraili gah şantaj etməyə, gah da onunla “dostluq” əlaqələri qurmağa çalışan Ermənistan növbəti dəfə saxta “soyqırım” iddialarını İsrail parlamentinin - Knessetin müzakirəsinə çıxarmaq üçün əlindən gələni edir. 24 aprel ərəfəsində növbəti dəfə bənzər təşəbbüslər qaldırılıb. Düzdür, bu səylər təkcə İsraili əhatə etmir, erməni lobbisi hətta ABŞ Konqresinə də layihə təqdim edib və “soyqırımı” tanımağa çağırıb. İsrail-Azərbaycan arasındakı strateji münasibətləri özünə təhlükə görən İrəvan üçün İsraildə bu layihəni qəbul etdirmək çox mühümdür. Ancaq Türkiyə-İsrail münasibətlərindəki 7 illik gərginlik zamanında arzusuna çata bilməyən ermənilər indi çətin ki, istəklərini reallaşdırsınlar. Bunu ötən aydan İsrailin Ermənistanda fəaliyyətə başlayan yeni səfiri Eliyaxu Yeruşalmi də dilə gətirib və erməniləri məyus edib. İsrailin saxta “erməni soyqırımını” niyə hələ də tanımaması barədə verilən suala cavabla da erməniləri məyus edib: “Erməni faciəsi həmişə bizim fikirlərimizdədir. Ancaq İsrail dövləti bizim fikirləşdiyimizi ifadə edə bilməz. Çünki bu, sizinlə Türkiyə arasında tarixi problemdir. Siz Türkiyə ilə bu məsələdə hansı qərara gəlsəniz, biz onu qəbul edəcəyik. Yəni Qarabağ məsələsində olduğu kimi, bu məsələdə də biz sizin və qarşı tərəfin hansı qərarı verəcəyini qəbul eləməliyik”.

**Ekspertlər də ermənilərin cəhdlərini mənasız sayır.**

**Milli Məclisin yəhudi əsilli deputatı Yevda Abramov “Yeni Müsavat” bildirdi ki, hər il 24 aprel ərəfəsində belə təşəbbüslər olur:** “Knessetin deputatlarının içərisində ermənipərəst deputatlar var. Onların seçiciləri ermənilər və ərəbyönümlü şəxslərdir.

## Yevda Abramov: “İsrail Knesseti heç vaxt uydurma soyqırımı qəbul edə bilməz”

Hər il 24 aprel ərəfəsində uydurma ”soyqırım"ı qaldırırlar və bu, mütəmadi təkrarlanır. Lakin o qədər də çəkisi olmayan komitə səviyyəsində müzakirə olunur, ondan yuxarı qalxmır. Mən bir neçə gündür oradakı uşaqlarla əlaqədəyəm. Orda bizim “Şahdağ” təşkilatımız var, Azərbaycandan gedən yəhudilər çox aktivdirlər, onlar mənə telefon açmışdılar. Mənə elə gəlir ki, bu, növbəti dəfə 24 aprel ərəfəsində atılan addımdır, ancaq görüntü ola bilər". **Y.Abramovun sözlərinə görə, İsrail parlamenti heç vaxt bu uydurma soyqırımı qəbul edə bilməz:** “Çünki İsraillə Azərbaycan arasında strateji portnyorluq var. Mən hətta XİN-in dəftərxanasına da çıxmışam. O vaxt parlamentin sədri də ermənilərə bir az yaxın idi. Amma o vaxt - ”Van minut"dan sonra Türkiyə ilə münasibətlər bir az soyuq idi. Bəlkə də Türkiyəni qıcıqlandırmaq baxımından İsrailin hansısa siyasi addımlar atması düzgün hesab olunardı. Amma yenə deyirəm, İsraildə çox sağlam fikirlər deputatlar, nazirlər var. Orda nazirlər deputat olur. İsrail XİN də heç vaxt istəməz ki, Azərbaycan-İsrail münasibətləri korlansın. Mən orda da XİN-də, deputatlarla görüşlərdə rəsmi şəkildə demişəm ki, hansısa məsələ parlamentdə qaldırıla bilər. Amma onu bilin ki, Türkiyənin barmağına toxunan hər bir tikan Azərbaycanın da barmağını ağrıdır, çünki bir millət, iki dövlətik. İkincisi də demişəm ki, Yəhudi Holokostundan sonra dünyada “erməni soyqırımı”nı ortaya atmaq erməni-fars şovinizminin birgə məhsuludur. Siz niyə bizim tarixi faciəmizi aşağılayırsınız, olmayan bir məsələni müzakirə edirsiniz? Onlar da deyirlər ki, bizdə demokratik cəmiyyətdir, fraksiya üzvü məsələ qaldırır, baxılır. Bu, elə bir komitədə müzakirə olunub ki... Adına baxın: Elm, idman, mədəniyyət komitəsi". **Y.Abramov qeyd etdi ki, ermənilərin vaxtilə yəhudiləri qırdığını İsraildə yaxşı bilirlər:** “Orada mənim çox yaxın bir dostum var, Arye Qut, dəfələrlə bəyan edib ki, əslində general Dronun heykəlinin İrəvanda qoyulması İkinci Dünya müharibəsində yəhudilərin qətliamının həyata keçirilməsinə haqq qazandırılmasıdır. Çünki Dro özü Krımda nasist gestapo fəalları ilə birgə yəhudilərin satılmasında, tanıdılmasında və məhvində çox böyük rol oynayıb. Bunu İsraildə də çox gözəl bilirlər”.



**Politoloq Elçin Mirzəbəyli də dedi ki, ermənilər hər il aprel ayında qondarma “erməni soyqırımı”nın tanıdılması ilə bağlı dünyanın bir çox ölkələrinin parlamentlərində hərəkətə keçirlər:** “Ancaq İsrail Knessetində erməni lobbisi güclü deyil və həm bu baxımdan, həm də digər səbəblərdən qondarma soyqırımın tanınması ilə bağlı qərarın qəbul ediləcəyi, hətta məsələnin müzakirəyə çıxarıla biləcəyi inandırıcı deyil. İsrail hökumətinin Azərbaycanla münasibətləri yüksək səviyyədədir. Azərbaycanın Knessetdəki dostları da kifayət qədər güclüdürlər”.

**Ekspertin sözlərinə görə, qondarma soyqırımın tanınması İsrailin öz maraqlarına da uyğun gəlmir:** “Çünki belə bir qərar İsrailin Təl-Əviv üçün strateji əhəmiyyətə malik olan bir ölkə ilə - Azərbaycanla münasibətlətlərinə xələl gətirə bilər. Digər tərəfdən, Türkiyə ilə münasibətlərin də tamamilə dalana dirənməsi mümkündür. Bu isə dini radikalizmin tüğyan etdiyi ərəb dövlətlərinin əhatəsində olan və İranın təhdidləri ilə qarşı-qarşıya qalan İsrail üçün heç də arzuolunan deyil”.

❑ **E.PAŞASOY**

# Tramplı dünyanın 90 günü - nələr dəyişdi...

## Elçin Mirzəbəyli: “Fərqli Tramp deyil, fərqli Amerika gördülər”

**Aprelin 20-də Amerika prezidenti Donald Trampın inauqurasiya mərasimindən 90 gün ötür. Ötən müddət onun prezidentlik müddətinin sonunadək öz kürsüsündə əyləşə bilməyəcəyi ilə bağlı səslənən proqnozlara bir növ, düzəliş elədi Ağ Evin yeni sahibinin 3 aylıq prezidentlik dönəmində dünyada ciddi proseslərin getdiyinin şahidi oluruq. Artıq Trampın seçki kampaniyası dövründə verdiyi vədlərdən boyun qaçırdığı görünür.**

Belə ki, ABŞ-ın soyuq münasibətlərdə olduğu Rusiya və digər dövlətlərlə yaxın əlaqələr quracağını deyən Trampın Birləşmiş Ştatların ənənəvi dünya siyasətindən kənara çıxmaqda aciz olduğu göründü. “Amerika əsgərləri digər ərazilərdə qurban olmayacaqlar” deyirdi Tramp. Lakin hazırda İraq, Əfqanıstan, Suriya kimi dövlətlərdə ABŞ hərbi qüvvələri var, yəni hələ də bu ərazilərdən amerikan əsgərləri çıxarılmayıb. “Demokratiyanın beşiyi” sayılan Amerikada da bu sahədə geriləmə müşahidə edilir ki, bunun da dünya demokratiyasına təsirləri görünür. Bütün hallarda Trampın əvvəlki prezident Barak Obamadan daha qətiyyətli addımlar atdığını söyləmək mümkündür. Bunu ən azından, Suriyada gedən son məlum proseslərə nəzərən demək olur. Azərbaycanın yerləşdiyi regionla bağlı da ciddi proseslərin getdiyini deyə bilərik.

**Politoloq Elçin Mirzəbəyli son 90 gündə Rusiyanın nüfuzuna ciddi zərbənin vurulduğunu düşünür:** “Tramp özü bəyan edib ki, prezident olduğu 90 gün ərzində Barak Obamanın xarici siyasətinin iflasını tamamilə faş edə bilib. Düşünürəm ki, Trampın prezident kimi fəaliyyətini də elə bu kontekstdən dəyərləndirmək lazımdır. Obamanın zəif, dişsiz və avantürist siyasətindən Trampa çox ağır bir miras qalıb. Obama ABŞ-ın geosiyasi maraqlarına ciddi zərbə vurub, Birləşmiş Ştatların qlobal güc kimi mövqelərini zəiflədib, ölkənin nüfuzdan düşməsinə zəmin yaradıb. Bu 90 gün ərzində dünyada dəyişən ən böyük reallıq Rusiyanın nüfuzuna vurulan çox ağır zərbədir. Əsəd rejiminin aviabazasına endirilən raket zərbələri təkcə Moskvanı susmağa məcbur etmədi, həmçinin ABŞ-ın Avropa İttifaqındakı rəqiblərinin yenidən dirçəlməsinə



və Rusiyaya qarşı açıq, sərt çıxışlar etməsinə imkan yaratdı. Suriyadakı aviabazaya endirilən zərbə Avroatlantik ittifaqı da silkələdi və özünə gətirdi. Bu sıraya Şimali Koreyaya və İrana qarşı sərgilənən sərt siyasəti də əlavə etsək, Trampın respublikaçıların ənənəvi siyasətini davam etdirmək niyyətində olduğunu görə bilərik. Dünyanı deyə bilmərəm, amma Rusiya, İran və Çin görmək istəmədikləri Trampı gördülər. Avropa İttifaqında isə bu proseslərin fərqli inkişafının şahidi olduq. Avropa İttifaqının liderləri qarşılarında fərqli Tramp deyil, fərqli Amerika gördülər. Trampın Amerikası qarşılığını almadan 1 sent də xərcləmək niyyətində deyil. Pulunu ödə, təhlükəsizliyini təmin edim - bu, Trampın təklif etdiyi təhlükəsizlik sistemidir. ABŞ biznes ölkəsidir və Tramp da məhz bu kontekstdən çıxış edir. Bunun Avropa Birliyi ölkələrini nə qədər qane edib-etmədiyini deyə bilmərəm. Amma mövcud şəraitdə başqa çıxış yolu da görünmür”.

**Politoloq Trampın respublikaçıların ənənəvi siyasətini davam etdirdiyini də qeyd etdi:** “ABŞ-ın demokratiyanın beşiyi olduğunu düşünmürəm. Demokratiyanın beşiyi Roma imperiyasıdır. Roma imperiyası isə tarixdir. ABŞ-ın siyasətində də Roma imperiyasını xatırladan bəzi məqamlar var. Çünki Romada da demokratiya yalnız azad Roma vətəndaşları üçün idi... Tramp 90 gün ərzində respublikaçıların ənənəvi siyasətini davam etdirdi. Miqrantlarla bağlı məhkəmələr tərəfindən ləğv edilən qərarlarını nəzərə almasaq, 90 gün ərzində ABŞ-ın daxili siyasətində hər hansı fundamental ziddiyyətlərin şahidi olmadıq. Əksinə, Barak Obamanın prezidentliyi dönəmində qara dərili ABŞ vətəndaşlarına qarşı baş verən qanunsuzluqlar da nəzərə çarpmadı. Zənnimcə, bu faktın özünün də ciddi araşdırılmasına ehtiyac var. Seçkiöncəsi verilən vədlər siyasi texnologiya vasitəsi idi. Tramp xarici siyasət, yaxud miqrantlarla bağlı vədləri yerinə yetirməyə də bilər. ABŞ vətəndaşlarını maraqlandıran iş yerləri ilə bağlı vədlər, iş adamlarının maraqlarına xidmət edən addımlardır. Sadəcə, insanları daha çox öz rifahları maraqlandırır. Digər tərəfdən, 90 gün bir o qədər də uzun müddət deyil”.

**E.Mirzəbəyli Trampın siyasətinin Rusiya və İranı qane etmədiyini söylədi:** “Region fərqli maraqları və prioritetləri olan dövlətlərdən ibarətdir. Məsələn, Trampın son davranışları Rusiya və İranı heç bir halda qane edə bilməz. Amma Rusiyanın dünyada və regionda mövqelərinin zəiflədilməsi həm postsovet, həm də digər region dövlətlərinin maraqlarına xidmət edir. İranın ipinin çəkilməsi də önəmli faktordur. Digər tərəfdən, ABŞ-Türkiyə münasibətlərində nəzərəçarpan müsbət dəyişiklikləri Azərbaycanın maraqları baxımından pozitiv irəliləyiş kimi də dəyərləndirmək olar. Tramp heç bir halda bizim, yaxud başqa birisinin görmək istədiyi kimi olmayacaq. Onun missiyası ABŞ-ın qlobal güc olaraq mövqelərinin möhkəmləndirilməsindən ibarətdir. Bunun bizim üçün həm müsbət, həm də mənfi tərəfləri var. Amma mənfi tərəflərini neytrallaşdırmaq imkanlarımız da az deyil. Bizim üçün önəmli olan regionda qüvvələr nisbətinin ifrat dərəcədə pozulmamasıdır. Suriyada baş verən hadisələr sübuta yetirdi ki, Tramp və komandası qərar qəbul etməyi bacarır. Bu isə onun öz kürsüsündə qalması üçün yetərlidir”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT N 81 (6695) 19 aprel 2017



## Dmitri Kiselyov Trampı Kim Çen İndən daha təhlükəli adlandırdı

**Kreml özünü Moskvanın Rusiya dövlət televiziyasında səslənən qızışdırıcı şərhdən kənar tutmağa çalışır. "Rossiya 1" kanalının aparıcısı Dmitry Kiselyov ABŞ prezidenti Donald Trampın Şimali Koreya lideri Kim Çen İndən daha təhlükəli olduğunu, hərəkətlərini proqnozlaşdırmağın mümkünsüzlüyünü söyləyib.**

Kremlin sözçüsü Dmitri Peskov isə jurnalistlərə deyib ki, Kiselyovun şərhləri çox vaxt Kremlin mövqeyi ilə üst-üstə düşsə də, bu, həmişə belə olmur. Rusiyada əksər dövlət media orqanlarının etdiyi kimi, Kiselyov Tramp seçiləndən öncə və sonra onu tərifləyirdi. Amma aprelin 7-də Tramp Suriyada hava bazasını raket zərbəsi ilə vurmaq göstərişi verəndən medianın da tonu dəyişib. Dövlət televiziyası və digər media şirkətləri ABŞ prezidentini indi daha çox tənqid edirlər.

Qeyd edək ki, ABŞ zərbələri Suriyada onlarla adamın ölümünə səbəb olmuş kimyəvi silah hücumuna cavab olaraq endirmişdi. Aprelin 16-da Şimali Koreyanın uğursuz raket sınağından bir neçə saat sonra Kiselyov deyib ki, Kim Tramp qədər qorxulu deyil, çünki danışıqlara hazırdır, digər ölkələrə hücum etməyib, ABŞ sahillərinə donanma göndərməyib.

"Bu iki şəxsiyyət - Donald Tramp və Kim Çen İn arasındakı qarşıdurma üzündən müharibə başlana bilər. Hər ikisi təhlükəlidir, amma kim daha təhlükəlidir? Tramp", - Kiselyov "Vesti Nedeli" proqramında belə deyib. "Reuters" xəbər agentliyi yazır ki, Kiselyova Tramp haqda belə sərt ritorikadan istifadəyə icazə verilməsi faktı Kremlin qəzəbini göstərir. Axı Moskva Trampın ikitərəfli əlaqələri yaxşılaşdıracağını gözləyirdi.

Kiselyov izləyicilərinə sarkazmla deyib ki, Şimali Koreya liderinin qızı, İvanka Tramp kimi atasının rəsmi iqamətgahında çalışmır.

Artıq bəzi rəy sorğuları da əsas xəbərləri televiziyalardan alan ictimaiyyətin Trampa münasibətinin dəyişdiyini göstərir. VTSİOM dövlət sorğu mərkəzinin bazar ertəsi açıqladığı nəticələrə görə, Trampa mənfi yanaşan rusiyalıların sayı bir ayın içində 37 faizdən 39-a qalxıb. Ona inamsızlıq və məyusluq hisslərinin də yüksəldiyi bildirilir.

"ABŞ-ın Suriyaya raket zərbəsi rusiyalıların çoxunun başına "soyuq su" tökdü", - sorğu mərkəzinin baş direktoru Valeri Fedorov agentliyə deyib.

"Reuters" yazır ki, 2014-cü ildə Ukraynanın Krım vilayətini ilhaq etməsinə, Ukraynada separatçıları dəstəkləməsinə baxmayaraq, Moskva ABŞ prezidentlərini başqa ölkələrin işlərinə qarışmaqda suçlayır. Trampa daha çox ümid bəsləsə də, ümidlər hələlik gerçəkləşməyib. Amma bəzi rəsmilər Birləşmiş Ştatlarla əlaqələri yaxşılaşdırmaq istədiklərini söyləyirlər. Çünki Ukraynaya görə qoyulmuş maliyyə sanksiyalarının yumşaldılması indi Rusiyanın ən çox istədiyi şeydir.

Yenə də həmin rəsmilərin agentliyə bildirdiyinə görə, Kreml anlayır ki, proses daha da ağırlaşacaq və ilkin düşünüldüyündən uzun çəkəcək. Rusiya rəsmiləri Trampın siyasi mövqeyinin sələfi Barak Obamadan çox da fərqlənmədiyini, yaxud ondan daha sərt olmadığını da dilə gətirirlər.

# ABŞ-la Şimali Koreya müharibə astanasında-dünya həyəcan təbili çalır

## Elxan Şahinoğlu: "Şimali Koreya müharibədən qorxmur; çünki avtoritar rejimdir, özünü qorumaq üçün xalqını qırğına da verər"

**Amerika Birləşmiş Ştatları ilə Şimali Koreya arasında münasibətlər gərginləşməkdə davam edir. Bu iki dövlət arasında müharibə ehtimalı getdikcə artmaqdadır. Son günlərdə bir-birilərini raket zərbələri ilə təhdid edən ölkələr artıq savaş meydanına doğru gedirlər.**



ABŞ-ın savaş təhdidlərinə rəğmən, Şimali Koreya hökuməti nüvə başlıqlı ballistik raket sınağını davam etdirəcəklərini açıqlayıb.

**Şimali Koreyanın xarici işlər naziri Xan Son Ryol Britaniya mətbuatına özəl müsahibəsi zamanı heç bir təhdidə boyun əyməyəcəklərini, Amerika ilə müharibədən qaçmayacaqlarını deyib:** "Biz bundan sonra da uzaqmənzilli raket sınaqlarını həyata keçirəcəyik. Əgər ABŞ ağılsızlığa yol verib hərbi yoldan istifadə etsə, bu, total müharibəyə çevriləcək".

Ryol yarımadada yaranan gərginliyə görə ABŞ-ın məsuliyyət daşıdığını və Şimali Koreyanın bölgədəki Amerika qüvvələrinə "qabaqlayıcı zərbələr" endirməyə hazır olduğunu da qeyd edib...

"Biz müharibəyə müharibə, nüvə savaşına nüvə savaşı ilə cavab verməyə hazırıq". BBC-nin məlumatına görə, bunu isə Şimali Koreya Xalq Ordusunun vitse-marşalı Çxve Ryon He Koreya Xalq Demokratik Respublikasının qurucusu Kim İr Senin anadan olmasının 105-ci ildönümünə həsr edilən hərbi paraddakı çıxışı zamanı dilə gətirib...

Bu arada Birləşmiş Ştatların Hərbi Dəniz Qüvvələrinin komandanlığı Şimali Koreya sahillərinə daha iki təyyarədaşıyan zərbə qruplaşması göndərib.

Beləliklə, ABŞ-ın Şimali Koreya sahillərində misli görünməmiş qüvvə cəmləşdirməsi baş verəcək. Üç təyyarədaşıyanın göyərtəsində cəmi 200-dən çox müxtəlif tipli bombardmançı və qırıcı təyyarələr, yüzlərlə "Tomoqavk" raketləri və digər silahlar var. ABŞ təyyarədaşıyanlarını müşayiət edən sualtı qayıqları isə nüvə başlığı daşıyan raketlərlə təchiz olunub.

ABŞ prezidenti Donald Tramp Fox News telekanalına müsahibə verərək bəyan edib ki, Şimali Koreyaya dair planlarının nədən ibarət olduğunu açıqlamaq niyyətində deyil. Tramp Pxenyana qarşı qərarının "hamı üçün sürpriz olacağını" bildirib.

**ABŞ prezidenti əlavə edib ki, Şimali Koreya diktatoru ilə danışmaq mənasızdır. Çünki o, uzun müddətdir ki, hamını barmağına dolayır:** "Bu adamla danışıqlar uzun müddətdir gedir. Siz Klintonun kitabını oxumusunuz, o deyir ki, guya biz möhtəşəm sülh razılaşması bağlamışıq. Bu, əlbəttə ki, zarafatdır. Siz Obamanın prezidentliyi dövründə müxtəlif məsələlərə baxmısınız. Hamısını dolayıblar. Onların hamısını bu adam barmağına dolayıb".

Bundan əvvəl Koreya yarımadasına səfər edən ABŞ vitse-prezidenti Maykl Pens Vaşinqtonun Pxenyana qarşı "strateji səbir" siyasətinin sona çatdığını elan edib, Şimali Koreya rəhbərliyini ABŞ-ın Suriyaya endirdiyi qəfil raket zərbələrini xatırlamağa çağırıb.

ABŞ-ın təhdidlərinə cavab olaraq Şimali Koreya hərbi komandanlığı elan edib ki, Pxenyan istənilən an ABŞ-ın regiondakı hərbi bazalarına, Seuldakı prezident sarayına, Yaponiyaya və Amerika ərazisinin özünə preventiv zərbələr endirə bilər.

Şimali Koreyanın BMT-dəki daimi nümayəndəsinin müavini Kim Yen Ryon isə deyib ki, nüvə müharibəsi istənilən an başlaya bilər. O, ABŞ-ı regionda təhlükəli situasiya yaratmaqda günahlandırıb. Diplomat deyib ki, Şimali Koreya ABŞ-ın istənilən hərbi təhdidlərinə cavab verəcək və bundan sonra hər həftə raket sınağı keçirəcək.

Yaponiya hökuməti isə regionda artmaqda olan gərginliyi nəzərə alaraq İkinci Dünya müharibəsindən bəri ilk dəfə özünün müdafiə qüvvələrini hərəkətə keçirməyə hazırlaşır. Hökumətin qərarına görə, əgər Şimali Koreya neytral sularda raket sınağı keçirsə, Yaponiya özünümüdafiə qüvvələri cəbhə xəttinə yeridiləcək.

Mövcud vəziyyət Cənubi Koreyada da ciddi narahatlıqla qarşılanıb. Cənubi Koreyanın baş naziri Xvan Ge An və ABŞ-ın vitse-prezidenti Mayk Pens Şimali Koreyanın növbəti provokasiyalarına cəza tədbirləri tətbiq etmək barədə razılıq əldə ediblər.

**Politoloq Elxan Şahinoğlu deyir ki, Amerika iki səbəbdən Şimali Koreyaya qarşı sərt siyasət yürüdür:** "Birincisi, Şimali Koreya avtoritar ölkədir və bu dövlətin nüvə silahına yiyələnməsi Amerikanın marağı olduğu bölgə üçün ciddi təhlükə mənbəyidir. İkincisi, Şimali Koreyanın qonşusu Cənubi Koreya Amerikanın müttəfiqidir və bu ölkənin təhdid edilməsi Amerikanın təhdid edilməsi mənasına gəlir. Buna rəğmən, Amerika ilə Şimali Koreya arasında müharibənin başlaması ehtimalı azdır. Çünki belə bir müharibə yüzminlərin ölümünə gətirib çıxaracaq. Amerikanın keçmiş prezidenti Bill Klinton dövründə hazırlanan hesabata görə, Şimali Koreya ilə müharibə ABŞ ordusunun ən azı 60 min canlı itkisinə səbəb ola bilər. Doğrudur, bu halda Şimali Koreyanın da böyük itkiləri olacaq. Ancaq 60 min amerikalı hərbçinin ölümü Vaşinqton üçün böyük rəqəmdir. Buna görə də Amerika prezidenti Donald Tramp nə qədər emosional qərarlar qəbul etsə də, Şimali Koreya ilə müharibəyə başlamaq kimi riskli addımdan çəkinəcək. Şimali Koreya müharibədən qorxmur. Çünki avtoritar rejimdir, özünü qorumaq üçün xalqını qırğına da verər. Onu da nəzərə almaq lazımdır ki, bu ölkə avtoritar kommunist dövləti olsa da, güclü ordusu var. Şimali Koreyanın ordusu Cənubi Koreyanın ordusundan güclü sayılır. Tramp Şimali Koreya ilə münaqişədən çəkinməlidir. Çünki Şimali Koreyanın avtoritar rejimi nüvə və kimyəvi silahdan istifadə edərək Cənubi Koreyanın ərazisini viran qoya bilər. Ona görə də Cənubi Koreya Amerikanın müttəfiqi olsa da, Şimali Koreya ilə müharibə arzulamır, Şimali Koreyanın nüvə silahı probleminin diplomatik yollarla həllini istəyir. Müharibə ehtimalı azdır. Bu heç kimə sərf etmir. Buna baxmayaraq, Şimali Koreyanın nüvə silahına malik olması bölgə üçün təhdid mənası daşıyır. Bu məsələni hansısa yolla həll etmək lazımdır. Əslində 1990-cı illərdə Vaşinqtonla Pxenyan arasında dialoq mövcud idi, amerikalı rəsmilər bu ölkəyə səfər edərdilər. Məsələn, keçmiş dövlət katibi Madlen Olbrayt Pxenyana gedərək bu ölkənin o zamankı avtoritar lideri, indiki lider Kim Çen İrin atasıyla görüşmüşdü. Məncə, Şimali Koreya ilə müharibə etməkdənsə, onu yola gətirmək lazımdır. Bu məsələdə Vaşinqtona Pekin də dəstək verə bilər. Çin Şimali Koreyanın yeganə müttəfiqidir, ticarətin əsas hissəsi bu ölkə ilədir. Çinin Amerika ilə də sıx dialoqu var. Ona görə də Tramp Çinin vasitəçilik imkanlarından istifadə edə bilər. Müharibə təhlükəsi artarsa, bu hamı üçün fəlakət olacaq. Nüvə və kimyəvi silahın tətbiqi sayəsində yüz minlərlə insan həlak olacaq, müharibəyə başqa dövlətlər də qoşulacaq, dünyanı ekoloji fəlakət bürüyəcək. Odur ki, sağlam məntiqin üstün gələcəyini düşünürəm".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 81 (6695) 19 aprel 2017




"Rusiya NATO-su" kimi tanınan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibliyinə axır ki, Ermənistan nümayəndəsi - general Yuri Xaçaturov təyin edildi. Azərbaycanla müharibə vəziyyətində olan bir ölkənin generalının belə bir təyinat alması Dağlıq Qarabağ konfliktinə, sülh danışıqlarına nə vəd edir? Sualla bağlı siyasi və ekspert dairələrində şərh və müzakirələr davam edir.


Oleq Kuznetsov

# "Qarabağ danışıqları gündəmdən çıxdı" - tanınmış rusiyalı analitikdən müharibə anonsu

## Moskvadan olan ekspert KTMT baş katibliyinə erməni generalının gətirilməsinin pərdəarxasını şərh edir; **Oleq Kuznetsov:** "Hazırkı erməni generallarının əksəriyyəti ya hərbi canilərdir, ya da qanunsuz silahlı birləşmələrin keçmiş səhra komandirləri..."

Maraqlıdır ki, Ermənistanda bu hadisə olduqca sakit və soyuq qarşılanıb. Erməni politoloqlarından bəziləri bu təyinatın arxasında başqa siyasi səbəblərin durduğunu və Ermənistana xeyir gətirmədiyini iddia edirlər.

"Xaçaturovun KTMT baş katibliyinə təyinatı başqa məqsədlər daşıyır. Əgər Rusiyanın Vaşinqton və ya Türkiyə ilə problemləri yaransa, bu təyinatın Kreml üçün hər hansı mənası ola bilər. Bundan başqa, MDB çərçivəsində konsolidasiyanın yaradılması olduqca vacib idi. Çünki son aylarda həm Qazaxıstan, həm də Belarusla problemlər yaşanırdı. Xaçaturovun təyinatı adıçəkilən ölkələrin nə dərəcədə sadiq qalıb-qalmamasını yoxlamaq üçün ön plana çıxarıldı". Musavat.com-un məlumatına görə, bu fikri İrəvandakı Milli və strateji araşdırmalar mərkəzinin direktoru Manvel Sərkisyan deyib.

**Erməni ekspert bu təyinatın Ermənistan üçün müsbət bir şey gətirmədiyini söyləyib:** "Digər ölkələrlə münasibətləri aydınlaşdırmaq məqsədilə Ermənistanın problemlərindən istifadə olunursa, bunun nəyi müsbət hadisədir? İkinci tərəfdən, Xaçaturov aprel döyüşlərində özünü çox pis apardı. Onun imzası ilə Moskvada Rusiya və Azərbaycan üçün sərfəli saziş əldə olundu. İndi onun özünü necə aparacağını bilmirəm, hər halda, belə nəticəyə gəlmək olar ki, Xaçaturov yalnız Rusiyanın maraqları üzrə hərəkət edəcək".

Politoloq bu hadisəni Ermənistan üçün Rusiyanın problemlərinə daxil olmaq "imkanı" olaraq gözdən keçirdiyini də bildirib: "Ermənistan bu məsələlərdə suverenliyini itirmək üzrədir və daha böyük təhlükəli hadisələrə cəlb olunur". O, Xaçaturovun təyinatının Azərbaycanla razılaşdırılmasına inanmadığını deyib: "Hesab edirəm ki, həm Belarus, həm də Qazaxıstan düşdükləri mürəkkəb vəziyyətə görə Azərbaycana qulaq asmayıb bu təyinata razılıq verməyə məcbur oldular".

*****

**Bu xüsusda tanınmış rusiyalı tarixçi-analitik və publisist Oleq Kuznetsovun isə daha maraqlı dəyərləndirməsi var. Musavat.com-un məlumatına görə, vesti.az saytı üçün yazdığı təhlil məqaləsində o, öncə indiki Ermənistan generalitetinin mahiyyətini çılpaqlığı ilə ortaya qoyaraq ifşa edib.**

"Heç kimə sirr deyil ki, hazırkı erməni generallarının əksəriyyəti ya hərbi canilərdir, ya da Dağlıq Qarabağ separatçılarının formalaşdırdığı qanunsuz silahlı birləşmələrin keçmiş səhra komandirləri. Onların yarıdan çoxunun hərbi təhsili yoxdur. Təkcə bunu xatırlatmaq kifayətdir ki, Ermənistanın sabiq müdafiə naziri, general-polkovnik Seyran Ohanyan sovet ordusunun mayoru olub. Hər şeyi öz adı ilə çağırsaq, o, hərbi qiyamçı və dezertir, 1992-ci ildə dinc Xocalı sakinlərinin qatilidir", - deyə analitik qeyd edir.

**Tarixçi alimin sözlərinə görə, Ohanyan Ermənistan silahlı qüvvələrində Qarabağ separatçılarının formalaşdırdığı qanunsuz silahlı birləşmələr və erməni terrorçuları ilə əlaqəsi olan yeganə hərbi məmur deyil:** "Onunla yanaşı, Ermənistanın Müdafiə Nazirliyinin mərkəzi aparatında neçə-neçə belə keçmiş səhra komandirləri və hərbi cinayətkarlar xidmət edib və etməkdədir".

**Rusiyalı ekspert daha sonra yazır:** "İndiki yüksək çinli erməni hərbçiləri arasında elələri də var ki, onlar öz xidməti siyahısında terror cinayətləri ilə yanaşı, həm də hərbi nizama qarşı cinayətlər ediblər. Onlardan biri də Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, general-leytenant Aykaz Baqramyandır. 1988-ci ildə - Sartarabaddakı batareyanın komandiri olarkən o, sovet ordusuna məxsus bütün silah-sursatı və hərbi əmlakı separatçıların qanunsuz birləşmələrinə vermiş, ardınca özü də onlara qoşulmuşdu. 1991-ci ildə o, üzdəniraq "Martuni dəstəsi"nin qərargah rəis olub. Bu dəstənin komandiri isə beynəlxalq erməni terrorçusu, ABŞ vətəndaşı Monte Melkanyan idi".

**Analitik daha sonra keçmişi terrorçuluq və hərbi cinayətlərlə zəngin erməni "generalları"nın təkcə ordu sistemində deyil, Ermənistanın başqa güc strukturlarında və hüquq-mühafizə sistemində də təmsil olunmasına diqqət yönəldərək yazır:** "Onlardan biri də polis qüvvələrinin komandanı, Ermənistan DİN polisinin rəis müavini, general-leytenant Levon Yeranosyandır... Belə hərbi cinayətkarların fonunda Yuri Xaçaturov, demək olar, "ağ cəngavər" kimi görünür. Əlbəttə ki, KTMT-nin rəsmi saytında yer almış, onun xidməti siyahısında Dağlıq Qarabağdakı döyüşlərlə bağlı qeydinə və Azərbaycana qarşı müharibədə iştirak faktına baxsaq, dəqiq onu demək olar ki, Xaçaturovun bioqrafiyasında qanunsuz silahlı birləşmələrdə separatçı-terrorçuların komandanlığı altında iştirakı ilə bağlı rüsvayçı səhifələr yoxdur. Məncə, məhz bu amil onun KTMT baş katibi postuna təyin edilməsində həlledici olub. Yəni Moskva nə qədər İrəvana loyal olsa da, onu himayə eləsə də, KTMT-nin başında hərbi caninin olmasına imkan verə bilməzdi".

**Politoloq, bununla belə, bu posta erməni generalın gətirilməsinin məcburiyyətdən doğduğuna da diqqət yönəldib:** "Uzun illər baş katib vəzifəsini bütün qaydalar pozulmaqla Rusiyadan olan general tuturdu. Çünki rotasiya qaydası tələb edirdi ki, həmin vəzifədə Ermənistan nümayəndəsi olsun. Lakin buna Qazaxıstan və Belarus maneə yaradırdı. Ancaq bir qurum özünün müəyyən elədiyi qaydaları sonsuzadək də poza bilməzdi. Odur ki, onsuz da kağız üzərində olan KTMT-nin baş katibi vəzifəsinə çirkaba batmış erməni generalları içərisindən ən təmizi sayılan Yuri Xaçaturovu təyin etməli oldular".

**Analitik bu təyinatdan sonrakı vəziyyəti də şərh edib.** "Təyinatla bağlı məntiqi sual ortaya çıxır: bəs bu addımın nəticələri nə olacaq? Yuxarıda sadalanan səbəblərə görə KTMT üçün heç bir nəticəsi olmayacaq. Ermənistan üçünsə - olacaq. Məsələ ondadır ki, Xaçaturov Ermənistan ordusuna faktiki rəhbərlikdən KTMT baş katibliyinə gətirilənədək Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisi vəzifəsini tutub. Yəni ən əsas və real hərbi komandan kimi o, guya daha yüksək vəzifəyə getməklə əlaqədar öz postundan götürülüb. Başqa sözlə, erməni generaliteti - hansı ki, Dağlıq Qarabağ separatçılarının keçmiş səhra komandirlərinin xuntasından ibarətdir, öz sırasındakı sonuncu "ağ qarğa"dan da xilas olub. Bu da o anlama gəlir ki, erməni ordusunda mövcud hakim elitaya siyasi iradlar bildirə biləcək bircə sağlam düşüncəli general da qalmayıb. Xaçaturovun kənarlaşdırılması həmçinin Serj Sərkisyanın "Qarabağ klanı"nın Ermənistan Silahlı Qüvvələri üzərində qəti, total və tam nəzarətinin təmin edilməsi deməkdir. Bu ordu ən yaxın zamanlarda ölkənin deyil, hakim rejimin müdafiə elementinə çevriləcək. Və bu ordunun əsas hərbi doktrinası Serj Sərkisyanın bu ilin əvvəlində elan elədiyi "Ermənistan, diaspora, Arsax" siyasi konsepsiyası olacaq. Ayrı sözlə, Dağlıq Qarabağa dair sülh danışıqlarını yaddan çıxarmaq olar", - deyə tarixçi-ekspert məqaləsinin sonunda vurğulayıb.

*****

Analitikin sonuncu fikrini, şübhəsiz ki, yeni müharibə anonsu kimi də dəyərləndirmək olar. Demək, KTMT-yə yeni təyinatın pərdəarxası ilə bağlı Azərbaycanın çıxarmalı olduğu nəticələr də var. Bu, həm də o anlama gəlir ki, Sərkisyan hərbi xuntasının hakimiyyətdə olduğu işğalçı Ermənistanla ötən ilin aprelindəki kimi, bundan sonra da hərbi dillə danışmaq ən effektli üsul olaraq qalacaq. KTMT-yə son baş katib təyinatından sonra Azərbaycan üçün əsas prioritet - özünün hərbi və döyüş hazırlıqlarını durmadan artırmaq və düşmən üzərində əzici hərbi üstünlüyü saxlamaqdan ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Kosmos əsrində, internet dövründə qədim əsrlər cəhaləti

Samir SARI

**Dünən doğma, əziz saytlardan biri mənə belə bir sual ünvanlamışdı ki, nə vaxtsa yazıçılarımız heç bir kənar işdə çalışmadan öz kitablarından gələn gəlirlə dolana biləcəkmi?**

Bu suala 4-5 cümləllk cavab yazdım, axırını da belə bitirdim ki, hazırda bizim yazı-pozu adamları at saxlanmayan adada nalbəndlik etməklə məşğuldur. Təvazökarlıqdan Taiti adası qədər uzaq olsa da, deyim ki, sonradan bu cavab özümün də xoşuma gəldi.

Gerçəkdən də at saxlanmayan adada nallamağa at tapmayan nalbənd özünü necə hiss edirsə, bu ölkənin oxucu tapmayan yazıçıları da o cür hiss edir.

Deyilə bilər ki, yox, niyə, hər halda oxucu var. Düzdür, var. Amma bu oxucuların çoxu yazıçıların özləri və yaxınlarıdır. Hər halda, ölkəmizdə oxucu-alıcı o qədər azdır (təxminən 700-1500 arasıdır) ki, onlar sayı 2 500-ü keçmiş şair-yazıçıları dolandırmaq gücündə deyil.

Burası belə. Bu yazıda isə söhbət heç də oxucuların pul verib kitab almasından, kitab bazarının inkişafından getmir. Qoy yazıçılar da işdən sonra bənnalıq edən müəllimlər kimi eləsinlər: ya yazıçılıq edəndən sonra başqa işdə çalışsınlar, ya da işdən sonra yazıçılıqla məşğul olsunlar. Ona qalsa, müəllimlər üçün ikinci və gəlirli iş yeri göstərən deputat Hadı Rəcəblinin ən yaxın dostu Hüseynbala Mirələmov romanlarını, pyeslərini işdən sonra yazır.

Söhbət regionumuzu saran, sarmaqda olan cəhalətdən gedir. Camaatın çoxu sosial şəbəkə statusundan başqa heç nə oxumur, o da hələ qısa olsa oxuyur,uzun olsa, vaz keçir.

Hazırda İstanbulda yaşayan keçmiş həmkarımız yazır ki, orda da insanlar kütləvi şəkildə kitabsızdırlar, ona görə də ömrü boyu yalnız bir kitab oxumuş hocaların təsiri altındadırlar.

Düzdür, bir kitab oxuyanda, olmur, ətrafda nə varsa, adamın gözünə kafir, cin-şeytan kimi görünür. Gərək çox kitab oxuyasan ki, fövqəlbəşər varlıqlara çox da baş qoşmayasan.

Əslində heç köhnə əyyamlardakı kimi gedib nadir kitabları kitabxanadan alıb, iki saat oxucu zalında oturub oxumağa və ya kitab maazalardan baha qiymətə kitab almağa da ehtiyac yoxdur. İnternet resursları istənilən dildə istənilən cür kitablarla doludur. İnternet şəbəkəsinə qoşulmuş evdə yaşayan istənilən kitab həvəskarı bayıra çıxmadan kitab oxumaqla məşğul olsa 124 min il boyunca oxumağa kitab tapa bilər.

Ancaq o qədər oxumağa nə ehtiyac var? Yetər ki, dünyaya səs salmış müəlliflərin kitablarını qiraət edəsən, nəsə bir şey oxuyasan, dünyanın necə bucaq olduğunu öyrənəsən.

Yəni elementar şeyləri bilmək lazımdır, Mendeleyevin elementlər cədvəlini bilməsək də olar. Onsuz da bu saat dünyada çox adam başına düşən daşın Nyutonun ümumdünya cazibə qanunu əsasında hərəkət etdiyini bilmir, əsas məsələ o daşı atanın məramını, məqsədini bilmək və daşdan, eləcə də "İsgəndər" raketindən, "Tomoqavk"dan qorunmağın üsullarını öyrənməkdir.

İnsanların kütləvi şəkildə savadsız olduğu ölkədə xeyli Nyuton, Tesla, Eynşteyn kimi alimlər, Heminquey, Moem, Drayzer kimi yazıçılar, Çörçill, Ruzvelt, Bismark kimi siyasətçilər olsa da xeyri yoxdur, onlar bisavad kütləni uzağa apara bilməzlər. Ancaq sabah Bağdadi kimisinin biri çıxar, deyər, ardımca Mosula qədər gəlin, ordan sizi cənnətə özüm yola salacam. On minlərlə insan da axışıb gedər. Çünki cənnət cazibədardır və onlar bunun sadəcə nağıl olduğu barədə kitab oxumayıblar.

Savadlı, dünyagörüşlü insanların çoxluq təşkil etdiyi ölkələrdə isə bu mümkün deyil, o cür çağırışlara qoşulanlar olsa da, tək-tək olacaq.

Budur, bizim coğrafiyamızda hələ də fındığın üstündə, pomidorun içində ərəbcə hansısa sözü oxumağa çalışanlar var (bu, hətta mediada xəbər olur). Ancaq "The İndependent" qəzeti yazır ki, alimlər insanın beynini, daha dəqiqi, adamın beyninin içindəkiləri sözün əsl mənasında oxuyan cihaz icad etməyə yaxındırlar.

Bu gün-sabah onlar elə bir cihaz tapacaqlar, özü də birinci bizə, Şərq insanına tətbiq edəcəklər (burası artıq gümandır), daha onları aldada bilməyəcəyik, beynimizi oxuyub biləcəklər ki, niyyətimiz nədir.

Adam oturur, düşünür ki, bu kosmos əsrində, savadlı, məlumatlı olmaq üçün bu qədər geniş imkanların olduğu bir zamanda biz nədən 2 min il əvvəldə olduğu qədər cahilik?

# Deputatın "avara" dediyi 1 milyon 800 min azərbaycanlı...

**Azərbaycan Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadənin facebook istifadəçilərini "avara" adlandırması sosial şəbəkələrdə, mediada xeyli müzakirə olundu. Təbii ki, ona ən sərt cavablar da gecikmədi.**

Ölkənin bütün təbəqələrini əhatə edən, facebook istifadəçisi olan 1 milyon 800 min azərbaycanlını bu şəkildə təhqir edən deputata kəskin reaksiyalar bildirilir. Maraqlıdır ki, sosial şəbəkə istifadəçilərini "avara" adlandıran A.Əlizadənin adına açılmış facebook səhifəsi tapılıb. A24.Az-ın apardığı qısa araşdırma zamanı məlum olub ki, Milli Məclis üzvü 2013-cü ildə facebookda öz adına yaradılmış - "Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadənin rəsmi səhifəsi" adında səhifə var.

Səhifədə millət vəkilinin mətbuata verdiyi müsahibələr, açıqlamalar, eləcə də deputatlığa namizəd olduğu zamanı aparılan təbliğat-təşviqat kampaniyasının fotoları yer alıb. Səhifədə ən axırıncı paylaşım isə bu ilin fevral ayının 15-də edilib.

Göründüyü kimi, özü istifadə etməsə də, adına səhifə olan və sosial şəbəkələrdən təbliği üçün istifadə edən partiya sədri facebook istifadəçilərini təhqir etməklə əslində özünü də aşağılayıb. Bir deputatın sosial şəbəkələrin nə qədər perspektivinin olduğunu, bütün dünyada facebookdan geniş istifadə olunduğunu dərk etməməsi təəssüf doğurmaqla yanaşı, həm də qəzəblə qarşılanır. Tez-tez bu cür fikirləri ilə gündəmə gələn deputat barəsində ölçü götürülməsi tələbləri var. Onun məhkəməyə verilməsi ideyası da var.

Facebookdan istifadə edən və etməyən tanınmış simaların deputatın fikirləri ilə bağlı mövqelərini aldıq.

## Sərdar Cəlaloğlu: "O, qeyri-ciddi, əxlaqi cəhətdən qüsurlu bir şəxsdir"



**Sosial şəbəkələrdə olmamasına baxmayaraq, ADP sədri Sərdar Cəlaloğlu A.Əlizadənin ünvanına sərt ifadələr işlətdi:** "Sosial şəbəkələrdə dövlət adamları, cəmiyyətin ən müxtəlif təbəqələri təmsil olunurlar. İnsanları bu şəkildə təhqir etmək olmaz. 2 milyona yaxın insanı bu şəkildə alçaltmağa heç kimin haqqı yoxdur. Əslində o şəxs barəsində facebook şəbəkəsi məhkəməyə müraciət etməlidir. Çünki faktiki o adam bu şəbəkənin biznes fəaliyyətinə də ciddi zərbə vurur. Araz Əlizadə unudub ki, Azərbaycanın dövlət başçısının ailəsi də sosial şəbəkələrdədir. Ümumiyyətlə, hamımızın yaxınları oradadır. Bu nə deməkdir? Bu sözləri deyəndə ölkədə dövlət xadimlərindən tutmuş üzüaşağı hər kəsi aşağılayır. Sən kimsən ki, bu insanları təhqir edirsən? Mən özüm facebookda yoxam. Deyə bilərsən ki, facebooka aludəçilik, orada çox vaxt keçirmək düzgün deyil. Bu başqa məsələ olar. Amma avara demək şəxsiyyətin alçaldılması deməkdir. Bu həm də informasiya almaq hüququna bir qəsddir. Vətəndaşın istənilən mənbədən informasiya almaq hüququ var. Bunlardan biri də azad məkan kimi facebookdur. İnsanlar buraya daxil olub, bir-birilərindən informasiya alırlar. Sən kimsən ki, vətəndaşları informasiya aldıqlarına görə axmaq adlandırırsan? Araz Əlizadə danışığını anlamayan bir adamdır. Sözlərinin başına ip salmaq lazım deyil. Çünki qeyri-ciddi, əxlaqi cəhətdən qüsurlu bir şəxsdir. Amma istənilən halda hər bir facebook istifadəçisi məhkəməyə verə, onu yerində oturda bilərlər".

**Facebookun fəal istifadəçilərindən olan AĞ Partiya rəhbəri Tural Abbaslı deputat barədə bu cür danışdı:** "Mən düşünürəm ki, Araz Əlizadə səviyyəli adamı bu qədər ciddiyə almaq doğrudur. Onun səviyyəsi və intellekti cəmiyyətə məlumdur; belə fikirlər səsləndirməsində də təəccüblü bir şey yoxdur, çünki adamın şəxsiyyəti budur. Hansısa tədbir görülməsi məsələsində isə güman edirəm ki, bu tədbiri xalq görməlidir və belə insanların hətta "təyinatla" belə olsa Milli Məclisdə təmsil olunmasına göz yummamalıdır".

## Tahir Kərimli: "Şəxsən ona etiraz edəcəm"

**Sosial şəbəkələrdən istifadə etməyən Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli həmkarı ilə parlamentin iclasında bu barədə danışacağını söylədi:** "Özüm sosial şəbəkələrdə yoxam, amma partiyamızın mətbuat xidməti, müavinlərim və yaxınlarım oradadırlar. Belə ehtiyatsız cümlələri işlətməsinə, doğrusu, inana bilmirəm. Bəlkə deyə bilərdi ki, orada yaxşı adamlarla yanaşı, pis adamlar da var. Təbii ki, avara adamlar hər yerdə var. Bəlkə sözləri təhrif olunub? Hər halda, deputat yoldaşıq, mütləq bunu ondan soruşacam. Əgər hamını avara adlandırıbsa, şəxsən ona etiraz edəcəm. Çünki övladlarım, qohumlar və ən yaxın adamlar oradadırlar. Facebook həyatımızdır, həyatımızın aynasıdır. Vaxt var idi internet yox idi, insanlar ünsiyyətin başqa formalarından istifadə edirdilər. İndi isə facebook insanların ortaq ünsiyyət formasına çevrilib. Özündən bu məsələni soruşandan sonra qəti fikrimi deyəcəm".

## Fərəc Quliyev: "Birbaşa özünü təhqir edir"

**Facebookda olan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev də həmkarını tənqid etdi:** "Milyondan çox insan növbəyə düzülüb Araz Əlizadəyə "ürək sözləri"ni demək üçün. Təbii ki, xoş olmayan ürək sözləri olacaq. Ona görə də növbəmi onlara buraxıram, nə deyirlər desinlər, onlarla razılaşacam. Orada olanları təhqir etməklə birbaşa özünü təhqir edir. Deputata bunlar yaraşmır. Başqa məsələlərə toxunmuram. Deputat parlamentdə səsləndirdiyi fikirlərinə görə məsuliyyət daşımır, amma bu o demək deyil ki, millətə, dövlətə xoş gəlməyən ifadələr işlədəsən. İctimai qınaqdan böyük cəza olmur. Şərəfli millətimiz var, onun bir cümləsi heç nəyi dəyişmir. Hər kəs məsuliyyətini dərk etməlidir".

## Aysel Əlizadə: "Onlar bizi təngə gətiriblər"

**Facebookdan aktiv istifadə edən yazıçı publisist Aysel Əlizadə hesab edir ki, bu cür deputatlar barədə artıq ölkə rəhbərliyi şəxsi fikir bildirməlidir:** "Gerçəkdən onlar bizi təngə gətiriblər. Keçən dəfə Astan Şahverdiyev təhqir etdi. Ona olmazın sözlər deyildi. Bunlar mütləq nəzərə alınmalı idi. Bizim fikir bildirməyimizin əhəmiyyəti qalmayıb. Bu cür parlament buraxılmalıdır. Ola bilər ki, deputatların içərisində yaxşıları çox olsun, biz onları yaxından tanımayaq, amma bu status ayrı məsuliyyətdir. Müsahibə verərkən aid olduğun xalqı aşağılaya bilməzsən. Heç bir ciddi siyasətçi bunu edə bilməz. Bunlar deputatların müzakirə edəcəkləri məsələlər deyil. Xalq onlardan tamam başqa şeylər gözləyir. Facebook barəsində müasir dünyanın siyasətçiləri başqa cür danışmalıdırlar".

## Mirvari Qəhrəmanlı: "Onların yeri səhv düşüb"

**Facebook istifadəçisi olan hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bunları dedi:** "Azərbaycanda çox adam düşünür ki, ona aid olan-olmayan, anladığı, yaxud anlamadığı məsələyə münasibət bildirməlidir. Son vaxtlar bu, deputatlar arasında da müşahidə olunur. Deputatlar onlara verilən suallara cavab verərkən daha ciddi olmalıdırlar. Cavab isə bəzən onların yerinin səhv düşdüyünü göstərir. Facebook istifadəçilərinə göndərdiyi mesaj da cənab Əlizadənin yerinin səhv düşdüyünə şübhə yaradır".

❑ Cavanşir ABBASLI

**"Tovuzda müəllim şagirdləri amansızcasına döydü", "Bakıda müəllim şagirdi xəstəxanalıq etdi" və s. başlıqlı xəbərlərə sosial şəbəkələrdə, mediada tez-tez rast gəlinir. Əvvəllər müəllimin şagirdi döyməsi adi hal kimi qarşılanırdı. Hətta vaxtilə valideynlər müəllimə uşağını tapşırarkən "Əti sənin, sümüyü mənim" deyərək, oxumadığı halda ondan övladını cəzalandırmağı istəyirdi.**

# Müəllimin şagirdi döyməsi cinayətdir, yoxsa savab?



## "Yeni Müsavat"çılar "ustad silləsi"nin əhəmiyyətindən danışdılar; **təhsil eksperti:** "Şagirdi döyən müəllim bunu ona cəza vermək, hansısa fiziki xəsarət yetirmək üçün etmir..."

O dövrlərdə şagirdi cəzalandırma üsulları fərqli idi. Şagirdə sillə vurmaqla, qulağını yüngülvari çəkməklə yanaşı, küncə qoymaq, tək ayaq üstə saxlamaq kimi metodlar da mövcud idi. Ancaq müasir dövrümüzdə durum bir qədər fərqlidir. İndi müəllim yüngülvari olaraq şagirdi tənbeh edib əl qaldırsa, valideyn dərhal şikayət edir. Təbii ki, nə olur-olsun, müəllimin şagirdə qarşı şiddət göstərməsi yolverilməzdir. Beynəlxalq Uşaq Hüquqları Konvensiyasında, eləcə də ölkəmizdə qəbul olunmuş "Uşaq hüquqları haqqında", "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında da uşaqlara qarşı zorakılıq, ayrı-seçkilik, fiziki cəza və s. kimi "tərbiyə vasitələri" yolverilməz sayılır.

Ekspertlərə görə, uşaq sivil formada cəzalandırılmalıdır. Şagirdin həyat təcrübəsi, bilik səviyyəsi, ünsiyyət və əməkdaşlıq bacarıqları müəllimə nisbətən aşağı səviyyədə olur. Müəllim münaqişədən yuxarıda durmağı və şagirdlərlə yaranan bütün təbii və qaçılmaz problemləri neqativ emosiyalarsız, hərdən yumor hissi ilə qarşılamağı bacarmalıdır. Bu cür sivil cəzalandırma üsulları uşaqda pozitiv davranış vərdişlərinin yaranmasına təkan verə bilər. İnsan ləyaqətini alçaldan fiziki və emosional zorakılıq isə yolverilməzdir. Psixoloqlara görə, cəza ilə tərbiyə olunan uşaqlarda "şəxsiyyətsizləşmə" gedir. Cəza alan cəza verməyi öyrənir. Əgər uşaq hansısa səhv edirsə, ona səhvi şirin dillə başa salınmalıdır. Tez-tez danlanan uşaq cəsarətlənir, gizli etdiklərini açıq etməyə başlayır.

**Tanınmışlar arasında da orta məktəbdə müəllim silləsinə tuş gələnlər az olmayıb və bu gün onların bəziləri bu silləyə görə müəllimlərinə təşəkkür edir.**

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu ilk dəfə 1-ci sinifdə oxuyarkən ustad silləsi aldığını dedi.**

**"Yeni Müsavat" qəzetinin əməkdaşı Elşad Paşasoy da müəllim silləsini "dadıb". E.Paşasoy illər sonra müəllimin ondan o sillənin halallığını aldığını dedi:** "Yadımdadır, qonşu kəndlərin birindən bizə - Yardımlı rayonunun Bilnə kənd natamam orta məktəbinə yeni, çox çalışqan və tələbkar müəllim gəlmişdi. 5 ya da 6-cı sinifdə oxuyurdum. Bir dəfə dərsin gedişində bilmirəm nəsə səhvim oldu, ya dərsə yaxşı cavab vermədim, müəllim qalxıb mənə bir sillə vurdu". **E.Paşasoy deyir ki, bu sillənin səsi uzun müddət onun qulağından getməyib. Amma illər sonra maraqlı bir hadisə ilə üzləşib:** "Düz 30 il sonra bir məclisdə həmin sevimli müəllimimi görəndə qəfildən mənim yadıma həmin sillə əhvalatı düşdü. Daha maraqlısı odur ki, müəllim məclisdən çıxanda yaxınlaşıb dedi ki, sənə qarşı o vaxt haqsızlıq eləmişəm, istəyirəm ki, mənə Həcc ziyarəti qabağı halallıq verəsən, rahat gedim. Dedim ki, müəllim, halalınız olsun, bəlkə də mənim həyatda qazandıqlarımda sizin o sillənin də böyük rolu olub. Gülüşdük və xoş təəssüratla ayrıldıq. Mütəfəkkirlərdən biri deyib ki, şapalaq bəzən yatmış vicdanı oyatmaq üçün ən böyük vasitədir. Müəllimin yüngül bir silləsi də bəzən uşağı ayılda, zərərli vərdişlərdən çəkindirə bilir. Mən təbii ki, kütləvi şəkildə şagirdlərin sillələnməsinin əleyhinəyəm. Ancaq istisnalar ola bilər ki, onun bir faydası olsun".

**Qəzetin digər əməkdaşı Etibar Seyidağa isə müəllimin silləsindən qəzəblənərək məktəbin həyətindəki ot tayasını yandırdığını dedi:** "7-8-də oxuyardım. Müəllimlərimdən biri məni bir neçə dəfə ardıcıl olaraq möhkəm döydü. Mən də ona görə balaca ot tayalarını yandırmışdım. O müəllim tək məni yox, hamını döyürdü. Ancaq döydüyünə görə bizim sinifdə onun fənnindən hamı əlaçı idi. Döyülməyin faydası vardı. Biz o müəllimlə görüşəndə də deyirik ki, əllərin var olsun. Döyülməsəydik, indi bu səviyyədə olmazdıq. Uşaqlıqda adam qəzəbli olur, müəllimə düşmən kimi baxırsan. İndi vəziyyət dəyişib. Bizim vaxtımızda müəllimin uşağı döyməsi adi hal idi. Hətta o zaman valideyn müəllimə deyirdi ki, uşağımı döy ki, oxusun. Döyməyin də həddi var. Yüngülvari uşağın qulağını çəkmək olar. İndi valideynlər uşaqların tərbiyəsinə mənfi təsir edirlər. Müəllim uşağın yüngülvari qulağını çəkəndə valideyn uşağı da götürür, müəllimin üzərinə hücum edir. Valideyn bilməlidir ki, bununla uşağının gələcəyinə zərbə vurur. Bu cür uşaqlar 10-11-ci siniflərə çatanda müəllimə əl qaldırırlar. Hətta potensial cinayətkara çevrilirlər".

**Maraqlıdır, hazırkı durumda müəllimin şagirdi vurması cinayət, yoxsa savad vermək sayılır? Təhsil eksperti Kamran Əsədov hesab edir ki, bütün hallarda müəllimin şagirdə qarşı fiziki zorakılıq törətməsi yolverilməzdir:** "Bu, ilk növbədə, 2014-cü ildə qəbul edilmiş "Müəllimlərin etik davranış qaydaları" haqqında nizamnamənin tələblərinə ziddir. Bundan başqa, uşaq konvensiyası da yetkinlik yaşına çatmayan şəxslərə qarşı fiziki cəzaların verilməsini pisləyir. Məsələnin ikinci bir tərəfi odur ki, gör şagird müəllimi hansı səviyyəyə çatdırıb ki, ali təhsilli, təcrübəli, idarəetmə qabiliyyəti olan şəxs özündən çıxıb şagirdə qarşı bu cür addım atıb.

Burda iki tərəfin günahı var. Mən bütün hallarda şagirdə qarşı zorakılıq və fiziki cəzanın əleyhinəyəm. Lakin unutmaq olmaz ki, bizim milli mentalitetimiz var. Şagirdi döyən müəllim bunu ona cəza vermək, ona hansısa fiziki xəsarət yetirmək üçün etmir. Müəllim öyrədən və tərbiyə edəndir. Bu tələblərin yerinə yetirilməsi üçün bəzi hallarda bəyənilməsə belə, fiziki cəza son hədd kimi çıxış yoludur. Amma bu döymə nə icra başçısının jurnalistə yumruq atması kimi, nəqliyyat departamentinin işçisinin taksi sürücüsünü döyməsi kimi, polisin bəzi hallarda kimisə ram etmək üçün sərt şəkildə döyməsi kimi deyil. Necə deyərlər, müəllim öyrətmək, tərbiyə etmək üçün bu yolu son zərurət kimi seçir. Bizim məktəb tariximiz son 90 il ərzində dünyəvi xarakter alıb. Bundan əvvəl dini mədrəsələrdə şagirdlər elmə yiyələnirdi ki, burda da cismani, yəni fiziki cəza adi hal idi. Hətta belə bir fikir də var idi ki, valideynlər övladlarını mədrəsəyə gətirəndə deyərdilər ki, "Əti sənin, sümüyü mənim". Yəni öyrətmək üçün nə lazımdır edə bilərsiniz, əziz müəllim. Keçmiş sovetlər dönəmində də məktəblərdə müəllimlər bu metoddan istifadə edərək şagirdlərin elmə sahib olmasına nail olurdu. Son olaraq deyim ki, bu halların aradan qaldırılması üçün ilk növbədə müəllimlərin psixoloji cəhətdən təlimlərlə cəlb olunması lazımdır. Onlar hansısa şagirdə qarşı bu addımı atanda öz övladlarını onun yerinə qoysunlar. Bu zaman məsələ daha yaxşı formada həllini tapacaq".

❑ **Günel MANAFLI**

# Müxalifətçilər də siqaret qadağasını alqışlayır



## Əksər siyasətçilər ictimai yerlərdə siqaretin yasaqlanmasını zəruri hesab edir

**Milli Məclisin qəbul etdiyi "Tütün istehlakının məhdudlaşdırılması haqqında" qanun layihəsinə görə, ictimai yerlərdə, qapalı məkanlarda siqaretin çəkilməsinin qadağan edilməsi nəzərdə tutulur.**

Bunun ardınca isə prezident İlham Əliyev də çıxışında xalqa xitabən "mən özüm siqaret çəkmirəm, heç kimə də məsləhət görmürəm. Ümid edirəm ki, Azərbaycanda siqaret çəkənlərin sayı azalacaq", - deyə bildirdi.

Bəs ölkə müxalifətinin nümayəndələri bu məsələ ilə bağlı nə düşünürlər?

**Ümid Partiyasının sədri İqbal Ağazadə özü siqaret çəksə də bildirdi ki, bu, yaxşı vərdiş deyil:** "Nə qədər çox məhdudiyyətlər olarsa insanlarımız daha az siqaret çəkərlər. Bunun hüquqi baxımdan tənzimlənməsi də əlbəttə ki, mümkün olacaq. Burada çətin heç nə yoxdur. Onsuz da son illərin mədəniyyəti bu məsələdə özünü göstərmişdi. Artıq ictimai yerlərdə, restoranlarda bundan çox az hallarda istifadə olunurdu. Ancaq bağlı və kiçik guşələrdə istifadə olunurdu. Eyni zamanda uzun müddət idi ki, hotellərin foyelərində də siqaret çəkilmirdi. Sovet dönəmindən də metroda siqaret çəkilməyib, avtobuslarda da çox nadir hallarda buna rast gəlinib. Bu məsələlərdə dəyərlər gözlənilib. Ona görə də hesab edirəm ki, yeniliklər də normaldır və alqışlayıram".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı isə söylədi ki, çox az hallarda siqaret çəkir və qanunun qəbul olunmasını da alqışlayır:** "Çox nadir hallarda siqaret çəkirdim. Ömrüm boyu üzərimdə siqaret gəzdirməmişəm. Siqareti çox ciddi şəkildə zərərli hesab edirəm. Düşünürəm ki, siqaret qadağa səviyyəsində məhdudlaşdırılmalıdır. Elə bir şərait yaradılmalıdır ki, insanlar siqaret çəkməsinlər. Ümumiyyətlə, bu, anormal bir şeydir. Küçədə, ictimai yerlərdə qadınlar, cavan qızlar da tərbiyəsiz şəkildə damaqlarında siqaretlə gəzirlərsə, bu, nə mentalitetə, nə də sağlamlığa uyğun deyil. Bizim adət-ənənələrimiz, böyük kiçik məsələlərimiz var. Avropanın imtina etdiyi şeyləri biz sonradan qəbul edib, eybəcər şəkildə yaşadırıq. Ona görə də hesab edirəm ki, qanun layihəsi normaldır".

**AĞ Partiya lideri Tural Abbaslı bildirdi ki, nə özü, nə də qardaşları siqaret çəkmir:** "Ümumiyyətlə, ətrafımda bu cür zərərli vərdişlərin sahibi olan insanların sayı da çox azdır. Belə bir zərərli vərdişlərin tərəfdarı deyiləm. Qanun layihəsinə gəlincə isə bunu da təbii ki, alqışlayıram. Dünyada il ərzində siqaret səbəbindən milyonlarla insan dünyasını dəyişir. İstər Avropa, istərsə də qonşu dövlətlərdə siqaretin çəkilmə məkanlarının məhdudlaşdırılması çox sürətli şəkildə həyata keçirilir. Bu da müsbət haldır. Çünki siqaret heç bir ehtiyac olmadan başlanılan pis vərdişdir. Ətrafdakı insanlar da çəkənlərin zərərini görürlər. Bu baxımdan, hesab edirəm ki, insanların kütləvi şəkildə toplaşdığı yerlərdə siqaretin çəkilməsi daha öncədən qadağan olunmalı idi. Qanun layihəsinin qəbul olunmasını alqışlayıram. Bunu dünyada edən ilk dövlət biz olmadığımız üçün hesab edirəm ki, qanunun işləmə mexanizmlərinə aid digər ölkələrin təcrübələrindən faydalanmaq olar. Düşünürəm ki, əsas da orta məktəblərdə bunu qadağan etmək lazımdır".

**Vətəndaş İnkişaf Partiyasının sədri Əli Əliyev də hesab edir ki, siqaretin çəkilməsi qadağan edilməlidir:** "Tütün məmulatları bir çox xəstəliklərin başlanğıcıdır. Xüsusilə də gənclərimizin orqanizminə, cəmiyyətin büdcəsinə ziyandır. Ona görə də siqaretin qadağan edilməsinin, antitütün təbliğatının aparılmasının tərəfdarı olan adamam. Özüm heç zaman siqaret çəkməmişəm".

**KXCP sədrinin müavini Xəzər Teyyublu siqaret çəkmədiyini və qanunun işləkliyini təmin etmək üçün yüksək cərimələrin tətbiq olunmasının vacib olduğunu söylədi:** "Dünyada qəbul olunan məsələdir ki, siqaret əhalinin sağlamlığına zərərlidir. Lakin maraqlı hal budur ki, qiymət qaldırılsa da, təbliğat aparılsa da, insanlar bu pis vərdişdən əl çəkmirlər. Azərbaycanda qəbul edilən qanun layihəsini müsbət qarşılayıram və hesab edirəm ki, bunun icra olunması üçün yüksək cərimələr tətbiq olunmalı və maarifləndirmə işləri aparılmalıdır. Özüm idmançı olmuşam və siqaret çəkmirəm".

❑ **Əli RAİS**

# Polis mayorunu bıçaqlayan şəxslərin məhkəməsi başladı



**Bakı Ağır Cinayətlər Məhkəməsində polis əməkdaşını öldürməyə cəhd etməkdə təqsirləndirilən 1988-ci il təvəllüdlü Həsənov Əli Elxan oğlu və 1976-cı il təvəlüldlü Məhərrəmov Əhmədyar Xanis oğlunun cinayət işi üzrə məhkəmənin növbəti iclası keçirilib.**

Hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə məhkəmədə sənədlərin tədbiqi mərhələsinin başlanıldığı elan olunub.

Daha sonra iclasda hadisənin videogörüntüsü nümayiş etdirilib.

Təqsirləndirilən Ə.Həsənovun vəkili Orxan Əhmədov çıxış edib. O, müvəkilinin özünü qorumaq niyyəti ilə elə hərəkət etdiyini deyib.

Hakim məhkəmə istintaqının başa çatdırıldığını elan edib.

Dövlət ittihamçısı çıxışa hazır olmadığını söyləyərək, məhkəmədən vaxt istəyib.

Növbəti proses aprelin 25-nə təyin olunub.

Qeyd edək ki, hadisə ötən ilin noyabr ayında Nərimanov rayonu Heydər Əliyev prospektində yerləşən kafelərdən birində baş verib. 1979-cu il təvvəllüdlü Abdullayev Namiq Aydın oğlu tanışı 1974-cü il təvvəllüdlü Cəbrayılov Arif Etibar oğlu və 1985-ci il təvvəllüdlü Məsimov Kamil Zakir oğlu, adları açıqlanmayan iki qadınla birlikdə kafedə əyləşiblər. Bu zaman kafeyə daxil olan İsmayıllı rayon sakini Ə.Məhərrəmov orada həmin şəxslərlə mübahisə edib. Nəticədə onlar arasında əlbəyaxa dava düşüb. (“Report”).

Məlumata görə, daha sonra Ə.Məhərrəmovu küçədə gözləyən tanışı Ə.Həsənov davaya qoşulub və N.Abdullayevi döyüb. Bu münaqişəyə A.Cəbrayılov və K.Məsimov da qarışıb. Kütləvi dava zamanı Ə.Həsənov bıçaq çıxararaq dava etdikləri şəxslərə xəsarətlər yetirərək ərazidən qaçıblar.

Ağır xəsarət alan hər üç şəxs təcili yardım maşını ilə 1 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılıb. Onların həyatını xilas etmək mümkün olub.

Xatırladaq ki, N.Abdullayev Xəzər Rayon Polis İdarəsinin 2-ci Polis Bölməsinin növbətçi hissəsində mayor rütbəsi ilə fəaliyyət göstərir və hadisə vaxtı o, xidmətdə olmayıb.

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

* Diaqnozu bilinməyən ağır hallar;
* Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
* Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
* Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
* Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
* Sidikdə və spermada qan;
* Spermanın azalması, itməsi;
* Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
* Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
* Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
* Tala-tala və hərtərəfli saçların tökülməsi;
* Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
* Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
* Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
* Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

## Bakıda 6 nəfərin qatilinə cəmi 10 il verdilər

**Aprelin 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində 6 nəfərin ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə ittiham olunan Elyar Bayramovun cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Zeynal Ağayev sədrlik edib. Prosesdə hökm oxunub.

Hökmə əsasən, E. Bayramov 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə ötən il avqustun 31-də Sumqayıt yaxınlığında, Bakı-Quba magistral yolunun 44-cü kilometrliyində baş verib. Saat 21:00 radələrində 1976-cı il təvəllüdlü Elyar Bayramov idarə etdiyi “Wolskvagen Passat” markalı, 99-DZ-632 dövlət qeydiyyat nişanlı avtomobillə 1983-cü il təvəllüdlü Məmmədov Elnur İsfəndiyar oğlunun idarə etdiyi “VAZ-21102" markalı, 66-BS-663 dövlət nömrə nişanlı avtomobillə toqquşub.

Nəticədə “VAZ-21102" markalı avtomobilin sürücüsü, həmin avtomobildə olan sərnişinlər - 1982-ci il təvəllüdlü Tovuz rayon sakinləri Məmmədova Arifə Yunis qızı, 1979-cu il təvəllüdlü Quliyeva Şəfəq Musa qızı, 1973-cü il təvəllüdlü Qasımov Akif Yunis oğlu, həmçinin ”Wolskvagen Passat" markalı avtomobildə olan sərnişin - 1982-ci il təvəllüdlü Bakı şəhər sakini Rəhimov Ramil Adil oğlu hadisə yerində ölüblər.

“Wolskvagen Passat” markalı avtomobilin sürücüsü və həmin avtomobildə olan sərnişin, 1983-cü il təvəllüdlü Abşeron rayon sakini Bayramov Elçin Yusif oğlu xəsarət alaraq Sumqayıt şəhər Mərkəzi Xəstəxanasına çatdırılsalar da, E.Bayramovu xilas etmək mümkün olmayıb.

## Nardaran sakininin evindən silah-sursat tapıldı

**Sabunçu Rayon Polis İdarəsi (RPİ) 42-ci Polis Bölməsi (PB) əməkdaşları tərəfindən bir neçə gün əvvəl yaşadığı evdə qanunsuz olaraq odlu silah-sursat saxladığı üçün tutulan Nardaran qəsəbə sakini Əliəsgər Cabbarovun ətrafından daxil olan əməliyyat məlumatı əsasında əlavə əməliyyat-axtarış tədbiri həyata keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, onun yaşadığı evin həyətindəki su quyusundan nömrəsi silinmiş “Makarov” markalı tapança, lüləsi və qundağı kəsilmiş tüfəng, 1 ədəd “F-1" qumbarasının alışqanı, 151 ədəd avtomat patronu, 7 ədəd giliz, 1 ədəd beşbarmaq, kustar üsulla hazırlanmış 6 ədəd bıçaq, 1 qılınc, 1 ədəd bıçaq qabı aşkar edilərək götürülüb.

Qeyd edilən faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Onu da qeyd edək ki, Sabunçu RPİ 42-ci PB əməkdaşlarının aprelin 13-də həyata keçirdikləri əməliyyat zamanı saxlanılan Ə.Cabbarovun yaşadığı evin həyətində istifadə olunmayan tikilidən 1 ədəd lülesi və qundağı kəsilmiş yivli “Karabin” markalı tüfəng, “RQD”-5 əl qumbarası və AK 74 avtomatına məxsus süngü bıçağı aşkar olunaraq götürülmüşdü.

❑ **Virtualaz.org**

**Elan**

**Mərkəzdə, “Gənclik” metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**
**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

**Aprelin 14-də Güney Azərbaycan şəhərlərində baş verən sel-daşqın nəticəsində həlak olan insanların sayı 45-ə çatıb. Onların da böyük əksəriyyəti Əcəbşir şəhərinin sakinləridir. Təkcə Azərşəhrdə 22, Əcəbşirin Çinar kəndində isə 20 nəfərin itkin düşdüyü bildirilir. İranın rəsmi məlumatlarında isə ölən və itkin düşənlərin sayı az göstərilir. Bu da yerli sakinlərin haqlı narazılığına səbəb olub.**

# Güney Azərbaycanda sel, yoxsa "selfi" faciəsi?

## Rəsmilər itkiləri gizlətməklə bərabər, bunu insanların səhlənkarlığı kimi qələmə verməyə çalışırlar





Rəsmilərin məsələyə biganə yanaşdığını görüb sakinlərin özləri itkin düşənlərin axtarışına başlayıb və nəticədə xeyli sayda cəsədlər tapılaraq ailələrinə verilib. Bununla bağlı sosial şəbəkələrdə çoxlu sayda videogörüntülər yayılıb. Videolarda avtomobillərin selin ağuşuna necə düşdüyünü əks etdirən dəhşətli görüntülər də yer alıb.

Mətbuatda isə "sel hadisəsində ölənlər, bütün xəbərdarlıqlara baxmayaraq, şəkil çəkmək üçün çayın ətrafına toplaşdılar", "Hadisə qurbanları seli seyr etməyə getmişdilər" başlıqlı yazılar dərc olunub, bununla da sanki insanların öz etinazsızlığının qurbanı olduğunu göstərməyə çalışıblar. Bu isə soydaşlarımızın kəskin etirazına səbəb olub.

İranın Urmiya şəhərindən olan millət vəkili Nadir Qazipur qeyd edib ki, fəlakətdə itkilərə səbəb olan əsas amil Yol və Şəhərsalma Nazirliyidir. Millət vəkilin sözlərinə görə, nazirlik yolu bağladığından insanlar məcburən "Qələzar" körpüsünün altından keçməli olub. Beləliklə, həmin istiqamətdə hərəkət edən avtomobil sahibləri və onlarla birgə olan ailələri fəlakətin qurbanı olub. Qeyd edək ki, bundan əvvəl valilik Şərqi Azərbaycanda matəm elan etsə də, İran hakimiyyəti, sadəcə, başsağlığı verməklə kifayətlənib və ölkə üzrə matəm elan olunmayıb. Nadir Qazipur bununla bağlı da öz etirazını bildirmişdi.

Qeyd edək ki, təbii fəlakət həmçinin Təbriz və Urmiya şəhərlərindəki evlərə də ziyan vurub, bir neçə körpü dağılıb.

**Əslən təbrizli olan, jurnalist İnsafəli Hidayət "Yeni Müsavat"a açıqlama verərək bildirib ki, hazırda da dövlət orqanları və yerli sakinlər itkin düşənlərin axtarışındadır. Jurnalist də qeyd edib ki, İran hakimiyyəti bilərəkdən itkilərin sayını az göstərməyə çalışır:** "Tehranda Pilasko adlı bir binanı yandırıb yıxdılar. Bir həftə olayı radio və televiziyaların canlı yayımında saxladılar və 1500 milyas tümən ziyan yazdılar. Yəni hər mağaza üçün 1500 kq qızıl vermək kimi bir tələb irəli sürdülər. Amma indi ən azı 5 bölgə və xüsusilə Güney Azərbaycana bu cür ziyan dəyib. Dövlət adamları çalışır ziyanı 100 ev qiymətinə endirsin. Bu o haldadır ki, hələ bir çox yerə getmək mümkün deyil və zərərləri hesablamaq imkansızdır".

**Jurnalist hadisə barəsində bəzi məqamlara da aydınlıq gətirib:** "Ölənlərin bir çoxu öz avtomobillərinin içində və ailəlikcə dünyasını dəyişiblər. Lakin dövlət rəsmiləri iddia edirlər ki, xalqa selin gəlməsini xəbər veriblər. Amma insanlar seldən "selfi" çəkərək, xəbərdarlıqları heçə sayıblar və nəticədə sel onları aparıb.

Qeyd edim ki, artıq 11-12 ildir ki, kənd əhalisi və turistlər, körpüdən kəndə getmək üçün körpünün alt hissəsindən keçmək məcburiyyətində qalıblar və dövlət rəsmiləri də sürücülərdən bunu tələb edir. Bu səbəbdən körpünün altından keçən avtomobillərin çoxu sahibləri ilə birlikdə selin qurbanı olub".






Baş verən faciə ilə əlaqədar Urmiya Universitetində çoxlu sayda tələbə anım tədbiri keçirib. Tələbələr faciə qurbanlarını anıb, banner və plakatlar qaldırıblar. Qeyd olunub ki, rəsmi mətbuat orqanlarında təbii fəlakətlə bağlı məlumatlar təhrif edilib, məqsədli şəkildə itkilərin sayı az göstərilib. Universitetin təhlükəsizlik əməkdaşları tələblərə mane olmağa, onlara müqavimət göstərməyə çalışsalar da tələbələr anım tədbirini nəzərdə tutulduğu kimi davam etdiriblər.

❑ Xalidə GƏRAY

# "Şadlıq evində süfrəyə kolbasa qoyulması əskiklikdir"-baş kulinar

## Tahir Əmiraslanov: "Bizim biznesmenlərimiz harada pul varsa, camaatı oradan öldürməyə hazırdılar"

**Son zamanlar Bakıda və bölgələrdə baytarlıq xidməti əməkdaşlarının müsadirə etdikləri at-eşşək ətləri əhalinin qida təhlükəsizliyinə dair şübhələrini bir az da artırıb. Səsləndirilən fikirlərdə at-eşşək ətlərinin kolbasa istehsalına, şadlıq evlərinə verildiyi iddia olunur.**

Kənd Təsərrüfatı Nazirliyi Aparatının Heyvandarlığın inkişafı şöbəsinin müdiri Qalib Əbdüləliyevin "eşşək əti zərərli deyil" açıqlaması isə odun üstünə yağ tökülməsi effektini verdi. Çünki heyvanın ətinin sağlamlıq göstəriciləri müsbət olsa belə, insanların qidalanma rasionu nəzərə alınmalıdır.



### "Kimsə mənə at-eşşək əti yedizdirsə..."

**Modern.az məsələnin aktuallığını nəzərə alaraq Azərbaycanın Milli Kulinariya Mərkəzinin (MKM) rəhbəri, əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanovla əlaqə saxlayıb. Baş kulinarın məsələyə münasibəti kəskin oldu:**

"Bu birmənalı olaraq yolverilməzdir. Kimsə mənə at-eşşək əti satarsa, başını yerindən qopararam və deyərəm ki, adam aldatmaq belə olur.

At ətini bütün türklər yeyir, yalnız türkmənlərlə azərbaycanlılar yemir. Qırğızlar maral və dəvə əti yemir, biz dəvə əti yeyirik. Elə xalq var it əti yeyir, eləsi var qurbağa yeyir və s. Biz inək əti yeyirik, amma elələri var ki, yemir. Texnoloji cəhətdən bütün ətlər yeyilə bilər, amma biz azərbaycanlılar genetik olaraq öyrəşdiyimiz ətləri yeyə bilirik. Çünki başqa ətlər bizə xeyir vermir. Ən azından zərər də verə bilər. Çünki biz o ətləri yeməyə hazır deyilik".

### "İçinə donuz əti vurub üstünə "halal" yazırlar"

**T.Əmiraslanov qeyd edir ki, qida seçimi insanların ixtiyarına buraxılmalıdır:** "Elə ət var ki, İslam dini onu yeməyi qadağan edir. Bu baxımdan, kolbasanı hazırlayarkən içinə donuz əti vurub üzərinə "halal" yazmasınlar. Mən satana inanıb alıb yeyirəm, məgər bu doğru bir şeydirmi? Buna görə də satılan məhsulun üzərində düzgün göstərilməlidir: at əti, it əti, eşşək əti, mal əti və s. Axı onlar bilir ki, həmin ətləri heç kim alıb yeməyəcək. Ona görə də xəlvətcə, camaatın istəyinin əleyhinə olaraq at-eşşək ətini yedizdirirlər. Bu da işbazların işidir. Bizim biznesmenlərimiz, maşallah, harada pul varsa, camaatı oradan öldürməyə hazırdılar. Saxta dərman da buraxırlar, keyfiyyətsiz qida da hazırlayırlar. Nəyin desəniz saxtasını hazırlayıb, üstünə "halal" yazıb, dədələrinin goruna da and içirlər".

### "Təkcə kolbasadan yox, bir çox şeylərdən çəkinmək lazımdır"

**T.Əmiraslanov əhalinin son günlər toy mərasimlərində kolbasa və lüləkababdan imtina etməsinə də münasibət bildirib:**

"İnsanlar düz edirlər. Təkcə kolbasa və sosiskadan yox, bir çox şeylərdən çəkinmək lazımdır. Hansı toyda kolbasa yeyildiyi görünür ki? Bu gün qoyulur, yeyilmir, yığıb sabahkı toyda süfrəyə düzürlər. Restoranda kolbasa verilməməlidir. Restoranda aşpazların hazırladığı xörəklər insanlara təqdim edilməlidir. Biz restorana kolbasa yeməyəmi gedirik?! Nəyə görə kolbasa qoyulur?! Kim yeyir o kolbasaları?! Ümumiyyətlə, restoranda, şadlıq evində süfrəyə kolbasa qoyulması əskiklikdir, qonağa təhqirdir. Süfrəyə qoyulan doğranmış kolbasanın tərkibi barədə məlumat almaq mümkün deyil. Bu baxımdan, onu süfrəyə vermək olmaz".

### 12 manatlıq ətdən hazırlanan 8 manatlıq lüləkabab...

**Baş kulinar deyir ki, restoranlarda satılan lüləkababların tərkibi və keyfiyyəti də şübhə altındadır:**

"Lüləkababın kilosunun 8 manata satılması çox qəribə və məchul bir şeydir. Ətin kiloqramı 12 manatdır. 1 kiloqram 650 qram ətdən 1 kiloqram lülə çıxır. 12 manatdan hesablayın, üzərinə kömürün və işçinin maaşını da gəlin. Ətin qiyməti 20 manata çıxır, gerisini isə hesablamağa ehtiyac yoxdur. Bişəndən sonra 1 kiloqram lülə 8 manata necə satılır? Mən bunu anlamıram. Bəlkə kimdəsə fokuslar var, mən bacarmıram onu".



# Nazirdən xəbərdarlıq

**Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi abidələrimizdə hər hansı qazıntı, bərpa işlərinin aparılmasında iştirak edən xarici şirkət "qara siyahı"ya daxil ediləcək.**

"Trend"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib.

**Nazir qeyd edib:** "Bu yaxınlarda bizi olduqca narahat edən faktlar aşkarlanıb. Dağlıq Qarabağın işğal olunduğu ərazilərdə bizim tarixi abidələri guya yenidən təhlil etmək üçün onların bəziləri üzərində qazıntılar aparılır, yalandan tarix uydurmaq məqsədilə işlər aparılır. Əfsus ki, bəzən digər ölkələrin alimləri də bu işə cəlb olunurlar. Buna görə Azərbaycanın mövqeyi prinsipialdır. Əgər hansı bir xarici şirkət orada qanunsuz aparılan qazıntılarda, bərpa işlərində iştirak edəcəksə, o, Azərbaycanda "qara siyahı"ya daxil ediləcək və ölkəmizlə əməkdaşlığı tamamilə dayandırılacaq".

Ə.Qarayev bu məsələ ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin də öz narahatlığını bildirdiyini söyləyib: "Biz, nazirlik olaraq YUNESKO, İSESKO səviyyəsində narahatlığımızı bildirmişik".

YENİ MÜSAVAT
Son səhifə
N 81 (6695) 19 aprel 2017

# Nyu-York ən çirkli şəhər imiş

Nyu-York ABŞ-ın ən çirkli şəhəri elan edilib. Bu barədə “Səyahət və istirahət” jurnalının apardığı sorğunun nəticələrindən məlum olub. ABŞ-ın ən iri meqapolisinin göstəriciləri ötən illə müqayisədə pisləşib.



Respondentlərin fikrincə, Nyu-York həm də Amerikanın ən səs-küylü şəhəri, sakinləri isə ən kobud amerikalılardır. Digər tərəfdən, “Böyük alma” (Nyu-Yorku bəzən belə də adlandırırlar) dəblə geyinmiş adamların, bahalı dükanların, teatrların sayına görə birinci yerdədir.

“Antireytinq beşliyi”nə Yeni Orlean (Luiziana ştatı), Baltimor (Merilend ştatı), Los-Anceles (Kaliforniya ştatı), Atlanta (Corciya ştatı) da daxildir. ABŞ-ın 35 şəhərinin qiymətləndirildiyi sorğuda 35 min adam iştirak edib.



## Mavi gözlülər niyə alkoqolik olur?

ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub. “Focus Online”da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqola meylliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, araşdırmanın test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.

# Serfinqlə məşğul olurdu, akula öldürdü

Avstraliyanın Esperans şəhərində 17 yaşlı qız atası ilə birgə serfinqlə məşğul olarkən akulanın hücumuna məruz qalıb və yırtıcı canlı onu öldürüb. Bu barədə lenta.ru saytı “The Independent”ə istinadən xəbər verir. Nəşrin xəbərinə görə, akula qıza hücum edərək, onun ayaqlarını qoparıb. Həkimlər ona çimərlikdə yardım göstərməyə çalışıblar. Amma bu mümkün olmayanda onu yerli xəstəxanalardan birinə aparıblar. Gənc qız orada dünyasını dəyişib. Akulanın hücumundan sonra yerli çimərlik 48 saat müddətinə qapadılıb. Çimərliyə gələnlərə belə bir hücumun ola biləcəyi barədə xəbərdarlıq da edilib. Sözügedən ərazidə daha öncə ağ akulaların insanlara hücumu qeydə alınmışdı. Belə ki, 2016-cı ilin iyununda 60 yaşlı Dorin Koller Pert şəhəri yaxınlığında dayvinqlə məşğul olanda hücuma məruz qalıb. 2014-cü ildə isə Şon Pollard akula hücumu nəticəsində hər iki əlini itirib.





## 6 il işləmədi, ayda 8 min dollar maaş aldı

Bir texnologiya şirkətində proqramçı olaraq çalışan işçi görməli olduğu bütün işləri avtomatik sistemə bağlayaraq 6 il boyunca heç çalışmadan ayda 8 min dollar maaş alıb. Amma bu hərəkətinə görə onu işdən qovublar. Buna səbəb isə onun sistemini kodlamağı unutmasıdır. Buna baxmayaraq, 6 illik uzun karyerası zamanı 200 min dollar yığıb və buna görə də maddi baxımdan hər hansı çətinliyi yoxdur. Evdə anasının hazırladığı axşam yeməyini yeyən, işlədiyi zamansa naharını balıq sendviçi və kola ilə yola verən gənc onun sayəsində qənaət edə bilib.

Amma adı açıqlanmayan gənc artıq həyatını bir sistemə qoymaq istədiyini deyib. Buna görə də bir neçə yerə işlə bağlı müraciət edib. Dediyinə görə, bu günə qədər unutduğu bir çox şeyləri təkrarlayacaq və bununla da motivasiyası geri qayıdacaq.



## 97 yaşlı qadın 4-cü mərtəbədən yıxıldı və sağ qaldı

97 yaşlı Mariya Artyomova mənzilinin pəncərəsini açaraq şüşəni yumaq istəyəndə yıxılıb və 4-cü mərtəbədən düşüb. Lenta.ru saytının xəbərinə görə, yaşının çoxluğuna baxmayaraq, çox qıvraq olan qarı pəncərənin aşağısındakı kondisionerin kronşteynindən yapışıb sallaşıb və yardıma adam çağırmağa başlayıb. Hadisə yerinə gəlmiş polis və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları iki qrupa bölünərək qarını xilas edənədək Artyomova 25 dəqiqə 10 metr hündürlükdə asılı qalıb. Sonucda 2 polis və 2 xilasedici qarını dartaraq mənzilə çıxarıblar. Həkim müayinəsi göstərib ki, Artyomova şokda olsa da, onun zədə və ya travmaları yoxdur. Rekord İspaniyadakı Montserrat dağındakı Roka Foradaad qayalığında qeydə alınıb.





QOÇ - Məsləhətsiz addım atmayın. Yaxşı bilirsiniz ki, tərslik etmək sizə xeyir gətirmir. Elə hərəkət edin ki, ətrafdakıların rəğbətini qazanasınız. Bu gün ağır fiziki işlərdən uzaq durun.


BUĞA - Müəyyən gərginliklər müşahidə olunsa da, bu, heç də insanlardan irəli gəlməyəcək. Qarşılaşdığınız çətinliklərə qarşı tədbirli olun. Göy qübbəsi tənbəlliyinizdən şikayətlənir.


ƏKİZLƏR - Bu maraqlı gündə maliyyə problemlərinizin həllini sürətləndirməlisiniz. Bu, hər mənada sizə kömək ola bilər. Yeni işlərə başlamaq üçün təcrübəli insanlarla müzakirələr aparın.


XƏRÇƏNG - Əsəbi situasiyalara mübtəla olsanız da, mətinliyiniz sayəsində nəticə öz xeyrinizə tamamlanacaq. Nahar ərəfəsində və axşama yaxın büdcənizi artırmaq imkanı qazanacaqsınız.


ŞİR - Yaxşı olar ki, bu gün işlə məşğul olmayasınız. Çünki bəxtinizin işdən kənarda gətirəcəyi bildirilir. Dostlarınızın əhatəsində olun. Uzaq olmayan ünvanlara səfər də edə bilərsiniz.


QIZ - Xoş xəbərlər yolunuzu gözləyir. Aldığınız hər bir təklif zövqünüzcə olacaq. Günün ikinci yarısında isə əzmkarlığınızı artırmaqla pul əldə edə bilərsiniz. Səfərə çıxmayın.


TƏRƏZİ - Maraqlı hadisələrlə rastlaşacaqsınız. Oturaq fəaliyyətə ara verin. Sevdiyiniz adamların arasında olmaqla sevincinizi artıra bilərsiniz. Taleyinizdə dönüş ərəfəsi başlamaqdadır.


ƏQRƏB - Təəssüf ki, bu gün ulduzlardan hansısa uğur gözləməyiniz əbəsdir. Yaxşısı budur, əsas qüvvənizi əmək fəaliyyətinə yönəldəsiniz. Başqalarının məsləhəti ilə hərəkət etməyin.


OXATAN - Narahatçılığa heç bir əsas yoxdur. Bütün sutkanı xoş təəssüratla başa vuracağınız güman olunur. Sevgi məsələlərində əməli addımlar atmağınız tələb olunur. Prosesləri dondurmayın.


OĞLAQ - Dünəndən bəri mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, bu, xəstəlik və ya qanqaraçılığı ilə nəticələnməyəcək. Lakin qərar çıxararkən mütləq ehtiyatlı olun. Böyüklərə qulaq asın.


SUTÖKƏN - Həmkarlarınızla münasibətlərinizdə soyuqluq yaranmaması üçün bir qədər güzəştə getməyiniz məsləhətdir. Yersiz iddialarınızı bir qədər məhdudlaşdırın. Axşamsa qonaq gedin.


BALIQLAR - Bu gün əsas enerjinizi fəaliyyətə yönəldin. Çünki digər sahələrdə hansısa uğur gözlənilmir. Təxminən saat 14-dən sonra şəxsi işlərinizdə ilkin irəliləyişlər nəzərə çarpacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Meymun uşağa analıq edir



Hindistanın Haryana əyalətinə bağlı Yamunagar şəhərində bir evə giren meymun evdəki 16 aylıq qızı sanki övladlığa götürüb. Körpəyə eynilə bir ana kimi sahiblənən meymun hər fürsətdə balasını öpür, qucaqlayır və təmizləyir. Körpənin atası Sultan Singh təxminən üç ay əvvəl qızlarının yanına gəldiklərində pəncərədən girdiyi aydın olan meymunla oynadığını gördüklərini söyləyib. Singh deyib ki, meymunun qızlarını sanki sahiblənərək öpüb daramasını görüncə heyvanı evə götürməyə qərar veriblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.